QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 113 (6313) 30 iyun 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Azərbaycan Prezidenti

### Ermənistana qurtuluş yolunu göstərdi!



Bax 3

### Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatının X hesabat konfransı keçirilib

İyunun 29-da Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatının videoformatda X hesabat konfransı keçirilib. Öncə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni...




Bax 6

### YAP Gənclər Birliyinin IV iclası keçirilib



İyunun 29-da Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin IV iclası keçirilib. İclasda YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov və Gənclər Birliyinin üzvləri iştirak ediblər. İclasda Gənclər Birliyinin...

Bax 4

### Gənclər niyə xaricdə təhsilə üstünlük verir?



Bax 6

"Hazırda xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin sayı 40 minə yaxındır. Onlardan 15 mini qardaş Türkiyədə, 20 mindən çoxu Rusiya, Ukrayna, Gürcüstan universitetlərində təhsil alır. Xarici ölkələrdə təhsil...

### Erməni zabit: "Bu ərazilərə giriş üçün Azərbaycan əsgərindən icazə istəyirik"

Zəngəzurun Teğ, Ərəvus və Xinzirək kəndlərinin əhalisi ot yığmağa getmək istədikdə Azərbaycan silahlı qüvvələrinin əsgərlərindən icazə alır. SİA xəbər verir ki, bu barədə erməni zabit Arman Tatoyan məlumat yayıb. Onun...



Bax 7

### Robert Koçaryan yenidən həbs ediləcək?



Bax 13

Ermənistanın keçmiş prezidenti Robert Koçaryana qarşı yeni ittiham irəli sürülə bilər. SİA erməni mediasına istinadən xəbər verir ki, prokuror...

### Toylarla bağlı qaydalar dəyişdirilir?




(SƏS TV - CANLI)

### "Qarabağda minalar: Ermənistan Cenevrə konvensiyalarını pozurmu?"



Fransanın "Mediapart" portalında "Qarabağda minalar: Ermənistan Cenevrə...

Bax 11

### Səmaya kim hakimdir- Amerika, yoxsa Rusiya döyüş təyyarələri?



Bax 12

### Rus dəbilqəsi altında gizlənən erməni sayıqlamaları...



Bax 14

### Baş infeksionistdən koronavirusa yoluxma hallarında artımla bağlı XƏBƏRDARLIQ



### Səxavət Soltanlı başqanı Arif Hacılının yaxasından yapışsın ki...



Bax 14

### "Media haqqında" Qanun layihəsi AZƏRTAC-da müzakirə olunub



Bax 5

### "Yuventus" Ronaldonun qərarını gözləyir



Bax 16

# Prezident İlham Əliyev "Courtyard by Marriott Baku" otelinin açılışında iştirak edib












**Paytaxtımızda "Courtyard by Marriott Baku" otelinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Dövlətimizin başçısı və birinci xanım oteldə yaradılan şəraitlə tanış olublar.**

Məlumat verildi ki, "Courtyard by Marriott Baku" otelində 365 otaq, iclas, idman zalları, restoran yaradılıb. Bu cür müasir otel kompleksinin istifadəyə verilməsi həm də ölkəmizdə qeyri-neft sektorunun inkişafına töhfə olmaqla yanaşı, paytaxtın sosial-iqtisadi inkişafında mühüm rol oynayır, otel biznesinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına şərait yaradır.

Bu otel kompleksi Avropada və dünyada xüsusi imicə malik otellər şəbəkəsi tərəfindən inşa edilib. Son illər Azərbaycanda dünya brendlərinə məxsus bu cür otellərin istifadəyə verilməsi ölkəmizdə əlverişli investisiya mühitinin olduğunu, bölgənin iqtisadi mərkəzi sayılan Azərbaycanın turizm sahəsində də qabaqcıl sıralarda qərarlaşdığını göstərir.

Qeyd edək ki, dünyada maliyyə və iqtisadi çətinliklərin olduğu, pandemiyanın ciddi fəsadlar yaratdığı bir dövrdə Prezident İlham Əliyevin gələcəyə baxış konsepsiyası sayəsində ölkəmizdə heç bir sosial-iqtisadi layihə təxirə salınmadı. Turizm infrastrukturunun inkişafı ilə bağlı həyata keçirilən davamlı tədbirlər, o cümlədən müasir mehmanxanaların istifadəyə verilməsi Azərbaycanda postpandemiya mərhələsinə daha uğurlu keçidi təmin etməkdə böyük rol oynayır.





# Azərbaycan Prezidenti
# Ermənistana qurtuluş yolunu göstərdi!

**İyunun 26-da "Gülüstan" sarayında Azərbaycan Silahlı Qüvvələri Günü ilə bağlı Ali Baş Komandanımız, Prezident İlham Əliyev hərbçilərlə görüşü zamanı dünyaya növbəti mesajlarını ünvanladı. Bu mesajlar həm də Ermənistana və onun xalqına ünvanlanmışdı. Eyni zamanda Azərbaycana qarşı bədxahlara ismarıclardan ibarət idi. Müzəffər Ali Baş Komandan Silahlı Qüvvələr Günündə ordumuzun keçdiyi şərəfli inkişaf yolu və 44 günlük Vətən müharibəsindəki şanlı zəfərimiz və onun səbəbləri üzərində məxsusi dayanmaqla yanaşı, müharibə zamanı ordusu darmadağın edilən Ermənistanı və onun xalqını bir daha öz başına gələnlərdən ibrət dərsi götürməyə çağırdı.**



## Ermənistan "Düz yola gəlin!" mesajına əməl etməməyin nəticəsi...

Prezidenti İlham Əliyev bütün çıxışlarında dəfələrlə "düz yola gəlin" mesajını deyib, ancaq əməl etməməyin acısı 2016-cı il Aprel döyüşləri işğalçı ölkəyə dərs olmadı. İyunun 26-da "Gülüstan" sarayında Ordu Günü ilə bağlı Ali Baş Komandanımız, Prezident İlham Əliyev hərbçilərlə görüşü zamanı bir daha Aprel döyüşlərinə toxunaraq bildirdi ki, bu döyüşlər Ermənistana dərs olmadı: "Ondan iki il sonra Naxçıvan əməliyyatı nəticəsində biz böyük ərazini götürdük və gücümüzü, peşəkarlığımızı bir daha göstərdik. O da dərs olmadı. Nəhayət, İkinci Qarabağ müharibəsi elə dərs oldu ki, onlar bu dərsi əbədi yadda saxlayacaqlar".

Göründüyü kimi, ermənilərin özləri də bunu gözəl bilir ki, vaxtilə Azərbaycan Prezidentinin "düz yola gəlin" mesajına əməl etməməyin acısı belə olmalı idi - məğlubiyyət! İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu tarix Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq. Bu, ədalətin, qürurun təntənəsi idi, milli ləyaqətin təntənəsi idi, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi idi. Biz bütün gücümüzü səfərbər edib bu müharibədə Qələbə qazanaraq düşməni torpaqlarımızdan qovduq. Düşməni elə rəzil vəziyyətə qoyduq ki, onlar bizim qabağımızda diz çökdülər, ağ bayraq qaldırdılar və məcbur olub kapitulyasiya aktına imza atdılar... Müharibə nəticəsində "Ermənistan ordusu məhv edilib. Ermənistan ordusu yoxdur", deyən Ali Baş Komandanın vurğuladığı kimi, İkinci Qarabağ müharibəsi Azərbaycanın tam qələbəsi ilə nəticələndi. Şəhidlərimizin qisası döyüş meydanında alındı və Azərbaycan öz ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ döyüş meydanında təmin etdi.

Prezident İlham Əliyev onu da bildirdi ki, uzun illər aparılan danışıqlar həmsədr və aparıcı dövlətlərin - Rusiyanın, ABŞ-ın, Fransanın ədalətsizliyi, qərəzli "vasitəçiliyi" ucbatından heç bir nəticə vermədi, əksinə, işğalçı Ermənistanı daha da azğınlaşdırdı, hətta Nikol Paşinaynın dövründə "yeni ərazilər uğrunda yeni müharibə" şüarı ortaya çıxdı. Özü də bu şüarı o vaxtkı müdafiə naziri David Tonoyan ABŞ-da səfərdə olarkən elan elədi. Beləcə, Azərbaycan dövləti və xalqına yalnız bir yol saxlanmışdı: mənasız danışıqlara son verib Vətən müharibəsinə başlamaq. Başladıq və qələbə çaldıq. "Qürur hissi ilə deyə bilərik ki, biz Silahlı Qüvvələr Gününü müzəffər ordu kimi, qalib xalq kimi qeyd edirik. Bu, tarixi nailiyyətdir", - Prezident çıxışında dedi. Azərbaycan bundan sonra müzəffər ölkə, Ermənistanın isə məğlub edilmiş, kapitulyasiya edən ölkə kimi yaşayacaq.



Bəli, bu, tarixi nailiyyətdir. Bu, şanlı zəfərimiz milli birliyimiz və beynəlxalq səviyyədə aparılan uğurlu diplomatiya və təbliğat işləri ilə yanaşı, həm də Ermənistan üzərində üstün iqtisadi potensialımız sayəsində mümkün oldu. Bu, qardaş Türkiyənin dəstəyi və uzun illərin titanik zəhmətinin yekunu idi: "O cümlədən, ikitərəfli formatda bir çox ölkələrlə bərabərhüquqlu və qarşılıqlı maraqlar üzərində qurduğumuz münasibətlər bizim gücümüzü artırırdı. Qardaş ölkələr - Türkiyə başda olmaqla Pakistan və Əfqanıstan, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər ölkələr müharibənin ilk saatlarından öz dəstəyini göstərirdi".



Dövlət başçımız çıxışında bildirdi ki, İkinci Qarabağ Müharibəsi ərəfəsində Ermənistan artıq tam təcrid olunmuş vəziyyətdə idi və İrəvanın danışıqlar prosesində sərgilədiyi riyakar mövqe vasitəçiləri də artıq bezdirmişdi: əbii ki, əsas ağırlıq və məsuliyyət ölkəmizin, onun xalqının və Ali Baş Komandanın üzərində idi. Və bu sınaqdan millət, dövlət, ordu olaraq alnıaçıq, qalib xalq, qalib dövlət kimi çıxa bildik. Azərbaycan Prezidenti İrəvana və onun havadarlarına bir daha ismarış göndərərək bildirdi ki, "Dağlıq Qarabağ" adlı ərazi vahidi, "Dağlıq Qarabağ münaqişəsi" anlayışı artıq yoxdur: "Ermənistanın inkişafı üçün də yeganə yol var - öz qonşuları ilə normal münasibətlər qurmaq və ərazi iddialarından əl çəkmək, Dağlıq Qarabağ sözünü ümumiyyətlə işlətməmək. Çünki "Dağlıq Qarabağ" adlı ərazi vahidi yoxdur, Dağlıq Qarabağ münaqişəsi anlayışı yoxdur. Mən bunu dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ münaqişəsi həll olunub, Ermənistan da bunu belə qəbul etməlidir və bizimlə sərhədlərin müəyyən edilməsi istiqamətində iş aparmalıdır. Delimitasiya üzrə işçi qrup yaradılmalıdır. Sülh müqaviləsinə hazırlıq işləri getməlidir. Biz bunu bəyan edirik. Biz qalib ölkəyik. Ermənistanı məhv etmişik, siz yaxşı bilirsiniz hansı çətin şərait əsasında. Onlar 30 il istehkamlar, 6 müdafiə xətti qurmuşdular. O bölgənin təbii relyefi onlar üçün çox əlverişli idi. Biz qəhrəman övladlarımızın canı-qanı bahasına, qəhrəmanlığı bahasına bu torpaqları azad etmişik. Ölümə gedirdi bizim gənclərimiz, əsgərlərimiz, zabitlərimiz. Hər kəs bunu deyirdi - öldü var, döndü yoxdur. Biz belə çətin şəraitdə qələbə qazanmışıq. Ona görə Ermənistan tam dərk etməlidir ki, biz istənilən hərbi vəzifəni icra edə bilərik və heç kim bizi dayandıra bilməz. Onlar bilməlidirlər ki, "dəmir yumruq" yerindədir".

Bəli, hələ də erməni xalqı anlamır ki, Ter-Petrosyan hakimiyyətindən tutmuş indiki küçə "demokratı" başıpozuq, xəstə təfəkkürlü Nikol Paşinyana kimi savadsızların uğursuz hakimiyyət "siyasətinin" əziyyətini elə sadə erməni xalqı çəkir və çəkəcək də. Yuxarıda qeyd etdiytimiz kimi, işğalçı və quduzlaşmış Paşinyan bu günə kimi hansı qələtləri etməyib? "Qarabağ Ermənistanındır, vəssalam!" böyük qələtini edərkən, Azərbaycan Prezidentinin cavabı - NİDA! olmalı idi. Ən əsas məqam isə, Nikol bu cavabı nəinki öz ölkəsində, hətta bütün dünya siyasətçiləri, prezidentləri səviyyəsi qarşısında almaqla yanaşı, həm də dünyadakı erməni havadarlarına da bir "düz yola gəlin" mesajı idi və bununla Azərbaycan dövlət başçısı bu məsələni dəfələrlə təkrar çatdırıb: "Azərbaycan torpaqlarının Ermənistan işğalından azad edilməsi bütün tərəflər üçün qəbulediləndir".

Bir sözlə, Ermənistan əgər yenə də bizə qarşı düşmənçilik siyasətindən əl çəkməsə, nəinki öz hərbi gücünü və məhv edilmiş ordusunu, eyni zamanda, iqtisadi durumunu bərpa edib dirçəlişə nail olmaq imkanları olmayacaq.Azərbaycan Prezidentinin dediyi kimi, Azərbaycan müharibə istəmir, ancaq Ermənistan savaş istəyirsə, cavabı keçən ilin payızındakı kimi, hətta ondan da sərt olacaq! Seçim özlərinindir... Artıq bu faktın gerçəkliyi göz önündədir...

**RƏFİQƏ HÜSEYNOVA**

# YAP Gənclər Birliyinin IV iclası keçirilib

**İyunun 29-da Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin IV iclası keçirilib. İclasda YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov və Gənclər Birliyinin üzvləri iştirak ediblər. İclasda Gənclər Birliyinin cari fəaliyyəti, qarşıda duran vəzifələr və komitələrin fəaliyyət planlarının icrası ilə bağlı bir sıra məsələlər geniş müzakirə olunub.**

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov YAP Gənclər Birliyinin son 3 ay ərzindəki fəaliyyətindən bəhs edib. Bildirib ki, Yeni Azərbaycan Partiyasının VII Qurultayından sonra yenidən formalaşdırılan YAP Gənclər Birliyinin tərkibində 5 komitə yaradılıb. Komitələrin əsas məqsədi Gənclər Birliyinin müxtəlif sahələr üzrə fəaliyyətində səmərəliliyin artırılmasıdır. Hazırda YAP Gənclər Birliyi tərəfindən I Davamlı İnkişaf Məktəbi layihəsinin icra olunduğunu deyən



B.İslamov qeyd edib ki, layihə cəmiyyətdə müxtəlif sferaları əhatə edən gənclər tərəfindən böyük maraqla qarşılanıb. Müsahibə mərhələsindən uğurla keçən 17 YAP üzvü və 17 bitərəf gənc layihədə iştirak etmək şansı qazanıb. Davamlı İnkişaf Məktəbinin əsas özəlliyi ondan ibarətdir ki, burada təkcə YAP üzvü olan gənclər deyil, həm də Partiya üzvü olmayan gənclərə də iştirak hüququ verilib.

Daha sonra YAP Gənclər Birliyinin sədr müavinləri Sevinc Qasımova, Fəsli Nəbiyev və Gənclər Birliyinin üzvləri Ülkər Qəhrəmanova, Ülviyyə Axundova, Kənan Kərimov, İlqar Axundov, Fərid Dünyamalıyev, Azad Manaflı, Fərid Sadıxlı, Nihad Allahyarlı, İlqar Quliyev, Salman Salmanov, Emil Aslanlı, Anastasiya Lavrina və Sabir Rüstəmov Gənclər Birliyinin növbəti dönəmdə həyata keçirəcəyi yeni layihələr və təşəbbüslər ətrafında fikir mübadiləsi aparıblar.

# Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının XI hesabat konfransı keçirilib



**İyunun 29-da Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının videoformatda XI hesabat konfransı keçirilib.**

Əvvəlcə Yeni Azərbaycan Partiyasının qurucusu, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.






Konfransın gündəliyi təsdiq edildikdən sonra YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev hesabat məruzəsi ilə çıxış edib. T.Tağıyev bildirib ki, ulu öndərimiz Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası xalqımızın və ölkəmizin həyatında mühüm yeniliklərin əsasını qoyub, partiyamız yarandığı vaxtdan siyasi mübarizələrlə dolu şərəfli bir yol keçib. Onun sözlərinə görə, partiyamızın Bakı şəhəri üzrə ilk yerli təşkilatı Nərimanov rayonunda yaradılıb.





Qeyd edilib ki, YAP Nərimanov rayon təşkilatının X konfransında üzvlərin sayı 21300 nəfər olduğu halda, XI konfransa qədərki dövrdə üzvlərin sayı 22888 nəfərə çatıb. Hal-hazırda ərazi ilk partiya təşkilatlarının sayı 120-dir. Hesabat dövründə rayon təşkilatı tərəfindən siyasi-ideoloji işin təşkili, ictimai-siyasi və mədəni-kütləvi tədbirlərin keçirilməsi və gənclərdə vətənpərvərlik ruhunun yüksəldilməsi, şəhid ailələrinə qayğı göstərilməsi istiqamətində müxtəlif tədbirlər keçirilib.







Sonra YAP Nərimanov rayon təşkilatının Nəzarət-Təftiş Qrupunun sədri Nizami Babaşovun hesabatı dinlənilib.

Müzakirələr zamanı YAP Nərimanov rayon təşkilatı İdarə Heyətinin üzvü, Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, YAP Nərimanov rayon təşkilatının sədr müavini, Təhsil nazirinin müavini Firudin Qurbanov, YAP Veteranlar Şurasının üzvü, AMEA-nın Riyaziyyat və Mexanika İnstutunun direktoru Misir Mərdanov, YAP Nərimanov rayon təşkilatının Şura üzvü, Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev, YAP Nərimanov rayon təşkilatı ərazi ilk partiya təşkilatının sədri, 45 saylı tam orta məktəbin direktoru, şəhidin həyat yoldaşı Nəcibə Axundova və YAP Nərimanov rayon təşkilatının üzvü, şəhid atası Arif Hümbətov çıxış edərək YAP Nərimanov rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyətinə münasibət bildiriblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, ulu öndər Heydər Əliyevin dediyi kimi, YAP dünənin, bu günün və gələcəyin partiyasıdır. Onun sözlərinə görə, fəaliyyət göstərdiyi illər ərzində Yeni Azərbaycan Partiyası öz proqramında nəzərdə tutulan vəzifələri yerinə yetirib. Bu baxımdan, VII qurultayda qəbul olunmuş qərarlar, partiyamızın Sədri, Prezident İlham Əliyevin qurultayda qarşıya qoyduğu tövsiyə və tapşırıqlar hər bir partiya üzvü üçün yeni vəzifələr müəyyənləşdirir.

XI hesabat konfransının keçirilməsi münasibətilə YAP Nərimanov rayon təşkilatının üzvlərini təbrik edən Əhliman Tağıyev təşkilatın gələcək fəaliyyətində uğurlar arzulayıb.

Qeyd edək ki, konfransda YAP Nərimanov rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

**Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə "Gülüstan" sarayında Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə keçirdiyi görüş Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.**




# Türkiyə mediası Prezident İlham Əliyevin hərbçilərlə görüşündəki nitqindən mühüm məqamları geniş işıqlandırıb




AZƏRTAC xəbər verir ki, yayılan informasiyalarda Müzəffər Ali Baş Komandan İlham Əliyevin hərbçilər qarşısında söylədiyi dərin məzmunlu nitqindən mühüm məqamlar türkdilli ictimaiyyətə təqdim olunub.

Anadolu Agentliyi, "Haber Global", "TRT Haber" telekanalları, "Yeni Şafak", "Türkiye" qəzetləri və digər media qurumları Prezident İlham Əliyevin rəhbərliyi ilə yenilməz Azərbaycan Ordusunun qazandığı rəşadətli Qələbədən sonra regionda yaranmış yeni siyasi vəziyyəti, Azərbaycanın bölgədə sülh və sabitlik yaratmaq istiqamətində sərgilədiyi dəyişməz mövqeyini çatdırıblar. Məlumatlarda, həmçinin diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev Vətən müharibəsində sərgilədiyi qətiyyətli və ədalətli mövqeyə görə Türkiyəyə bir daha minnətdarlığını ifadə edib.

Qeyd edək ki, Türkiyə KİV-ləri 26 iyun - Azərbaycan Respublikası Silahlı Qüvvələri Gününü ilə bağlı da müxtəlif məlumatlar yayıb.

# "Media haqqında" Qanun layihəsi AZƏRTAC-da müzakirə olunub

**İyunun 29-da Azərbaycan Dövlət İnformasiya Agentliyində (AZƏRTAC) "Media haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin müzakirəsi keçirilib. Müzakirələrdə Medianın İnkişafı Agentliyinin rəhbərliyi, AZƏRTAC-ın İdarə Heyətinin üzvləri və struktur rəhbərləri iştirak edirdilər.**





Əvvəlcə, ulu öndər Heydər Əliyevin AZƏRTAC-ın binasının foyesindəki büstü önünə güllər düzüldü, xatirəsi ehtiramla yad olundu. AZƏRTAC-ın və AzTV-nin Kəlbəcərdə minaya düşərək şəhid olan jurnalistləri Məhərrəm İbrahimovun və Sirac Abışovun xatirə guşəsindəki portretləri önünə də güllər qoyuldu.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov tədbirdə çıxış edərək, qanun layihəsinin mətbuat orqanları arasında ilk müzakirəsinin AZƏRTAC-da keçirilməsinə görə Medianın İnkişafı Agentliyinin rəhbərliyinə minnətdarlığını bildirdi. Ulu öndər Heydər Əliyevin mətbuata böyük önəm verdiyini, jurnalistlərə və mediaya xüsusi diqqət və qayğı ilə yanaşdığını xatırladan A.Aslanov qeyd etdi ki, Ümummilli Liderin hakimiyyətə qayıdışından sonra ölkəmizdə senzura ləğv olundu, mətbuatın fəaliyyətini nizamlayan qanunvericilik bazası yaradıldı. Sonrakı illərdə Ulu Öndərin KİV sahəsində siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə milli mediamızın müasir dövrün tələbləri səviyyəsinə yüksəldilməsi istiqamətində mühüm islahatlar aparıldı.

"Hazırda media məkanında sürətli qloballaşma gedir, mətbuatın cəmiyyətdə rolu görünməmiş dərəcədə artır. Buna müvafiq olaraq informasiya mühiti gündən-günə modernləşir. Qabaqcıl texnologiyalar həyatımıza sürətlə daxil olur, aparıcı trendlər meydana gəlir. Bu gün jurnalistlərin, milli mediamızın qarşısında cəmiyyəti daha obyektiv, daha peşəkarlıqla məlumatlandırmaq vəzifəsi dayanır. Bu baxımdan qanunvericiliyin təkmilləşdirilməsi günün ən vacib tələbidir. Əminəm ki, Medianın İnkişafı Agentliyi bu sahədə üzərinə düşən vəzifələrin öhdəsindən uğurla gələcək", - deyə İdarə Heyətinin sədri bildirdi.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov "Media haqqında" Qanun layihəsinin müzakirəsinə yaratdığı şəraitə görə AZƏRTAC-ın rəhbərliyinə minnətdarlığını ifadə etdi. Yeni qanun layihəsi haqqında məlumat verən icraçı direktor bununla bağlı müzakirələrin aparılmasının əhəmiyyətindən söz açdı. O, Azərbaycanın ilk informasiya agentliyi olan AZƏRTAC-ın təcrübəli jurnalistlərinin fikirlərinin ümumi işin xeyrinə ola biləcəyini vurğulayaraq, onları işgüzar fikir mübadiləsinə çağırdı.

Sonra Medianın İnkişafı Agentliyinin Hüquq departamentinin direktoru Rəqsanə Kərimova qanun layihəsinin təqdimatını etdi. Bildirildi ki, layihənin müddəaları Azərbaycan Respublikasının ərazisində təsis olunmuş media subyektlərinə, redaksiyalara, onların məhsullarına, ölkə hüdudlarından kənarda olan və fəaliyyəti respublikamızın ərazisinə və auditoriyasına istiqamətlənmiş bütün media subyektlərinə, habelə xaricdə yaradılan media məhsullarının yalnız Azərbaycan ərazisində yayılan hissəsinə və jurnalistlərə şamil olunur. Departament direktoru tədbir iştirakçılarını media subyektləri (audiovizual, çap və onlayn media subyektləri, informasiya agentlikləri), səlahiyyətli orqanlar, mediada yayımlanan informasiyalara dair tələblər, media subyektinin informasiyasından istifadə, media reyestri, jurnalistlərin akkreditasiyası və qanun layihəsinin digər müddəaları barədə ətraflı məlumatlandırdı.

Tədbir qanun layihəsinin diskussiya şəraitində aparılan müzakirəsi və fikir mübadiləsi ilə davam etdi, iştirakçıları maraqlandıran bir sıra suallar cavablandırıldı.

# Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatının X hesabat konfransı keçirilib

**İyunun 29-da Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatının videoformatda X hesabat konfransı keçirilib. Öncə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla**














**yad edilib.**

Konfransın gündəliyi təsdiqləndikdən sonra YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva hesabat məruzəsi ilə çıxış edərək bu gün sıralarında 760 mindən artıq üzvü birləşdirən, nəinki ölkəmizin, regionun aparıcı siyasi təşkilatına çevrilən Yeni Azərbaycan Partiyasının cəmiyyətdə artan mövqeyindən, siyasi çəkisindən bəhs edib. Bildirib ki, YAP yarandığı gündən milyonların partiyasına çevrilib, öz siyasi əqidəsinə, tutduğu yola sadiq olub.

M.Abasquliyeva deyib ki, YAP Sabunçu rayon təşkilatı 1993-cü il yanvar ayında 30 nəfərdən ibarət təşkilat komitəsi ilə fəaliyyətə başlayıb: "IX konfransdan bu günə YAP Sabunçu rayon təşkilatının sıralarına 850 nəfər yeni üzv daxil olub. Hesabat dövründə 6 ərazi ilk partiya təşkilatı yaradılıb. IX konfransda təşkilatın 9951 nəfər üzvü var idi. Hazırda yeni üzvlərin daxil olması ilə bu rəqəm 10801 nəfərdir. Onlardan 6122 nəfər qadın, 4679 nəfər kişi, 4253 nəfər gənclərdir".

Sonra YAP Sabunçu rayon təşkilatının Nəzarət-Təftiş Qrupunun sədri Nəbi Hacıyevin hesabatı dinlənilib.

Müzakirələr zamanı 252 saylı məktəb ərazi ilk partiya təşkilatının sədri Xədicə Eminova, 74 saylı məktəb ərazi ilk partiya təşkilatının sədri Murad Zeynalov, YAP Sabunçu rayon Gənclər Birliyinin sədr müavini Sərxan Şahverdiyev, YAP Sabunçu rayon təşkilatı İdarə Heyətinin üzvləri Asif Qurbanov və Gülnaz Abdullayeva çıxış edərək YAP Sabunçu rayon təşkilatının hesabat dövrü ərzində gördüyü işlərdən bəhs ediblər.



Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, möhtərəm Prezidentimiz İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyinin təmin edilməsi, ölkənin tərəqqisi, iqtisadiyyatın yüksəlişi, xalqın rifahının yaxşılaşması, uğurlu neft strategiyasının həyata keçirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması, ölkəmizin təhlükəsizliyinin təmin edilməsi iqtidarında olan ordunun daha da güclənməsi, 44 günlük Vətən müharibəsində əldə olunan parlaq Qələbə nəticəsində ərazi bütövlüyü təmin edilən Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi naminə ardıcıl siyasət həyata keçirilir. Bu poseslərdə YAP daim ön sırada olub.



Ə.Tağıyev YAP Sabunçu rayon təşkilatına gələcək fəaliyyətində uğurlar diləyib.

Konfransda YAP Sabunçu rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.



# Gənclər niyə xaricdə təhsilə üstünlük verir?

*Ekspert aydınlıq gətirdi*

"Hazırda xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin sayı 40 minə yaxındır. Onlardan 15 mini qardaş Türkiyədə, 20 mindən çoxu Rusiya, Ukrayna, Gürcüstan universitetlərində təhsil alır. Xarici ölkələrdə təhsil almaq üçün gedənləri əsasən bir neçə qrupa bölmək olar. Onlardan biri Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında topladıqları ballar burda ali məktəblərə qəbul olmağa imkan verməyənlərlədir ki, bunların sayı həddsiz dərəcədə çoxdur. Bu kateqoriyaya aid olan şəxslər daha çox Ukrayna, Rusiya, Dərbənd, Dağıstan, Gürcüstan kimi ərazilərin universitetlərində təhsil almağa üstünlük verirlər. Səbəb isə odur ki, bu universitetlərdə hətta prestijli ixtisaslarda təhsil alsalar belə, qeyri-qanuni yollarla təhsillərini başa vura biləcəklər. Bu ölkələrdə təhsil almağa gedənlərin əksəriyyəti hüquq, maliyyə-iqtisadiyyat kimi ixtisaslara daha çox üstünlük verirlər". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Onun sözlərinə görə, ikinci kateqoriyanı o şəxslər təşkil edir ki, onlar Azərbaycanda ali məktəblərə qəbul olurlar, amma aldıqları təhsil onları qane etmir: "Ona görə də daha yüksək səviyyədə təhsil almaq üçün onlar xarici ölkələrə üz tuturlar. Müəyyən şəxslər də var ki, ali təhsil almaq istəyir, amma Azərbaycanda təhsil haqları yüksək olduğu üçün daha ucuz təhsil haqqı olan ölkələrə gedirlər. Bu şəxslər daha çox Türkiyə, Macarıstan, və digər Avropa ölkələrinin universitetlərinə üz tuturlar və seçdikləri ixtisaslar tibb, kompyuter və ya informasiya və nano texnologiya kimi ixtisaslar olur".

Ekspert sözlərinə belə davam edib: "Üçüncü kateqoriyanı isə Azərbaycan Respublikası Prezidentinin 2007-2015-ci illəri əhatə edən Xaricdə Təhsil Dövlət Proqramı çərçivəsində xarici ölkələrdə təhsil almağa gedənlər təşkil edir. Bu proqram çərçivəsində daha çox Azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almalarını və ölkənin inkişafının mühüm amilinə çevrilmələrini təmin etmək məqsədi güdülür. Xaricdə Təhsil proqramı ilə gəncləri daha çox müəyyən edilmiş prioritet ixtisaslar: Beynəlxalq münasibətlər, Tibb, Baytarlıq, Kənd təsərrüfatı, Mühəndislik, Yüksək texnologiyalar, Qədim dillər ixtisasları əhatə edir.

"Hal-hazırda ən ciddi problem xarici ölkələrdə təhsil alanların diplomlarının tanınması ilə bağlıdır. Bu bəzi hallarda xarici təhsil xidməti göstərən şirkətlərin şəxsi kommersiya maraqları ucbatından baş verir. Belə ki, lisenziya müddəti bitmiş və akreditasiyası olmayan universitetlərə qəbul həyata keçirilir. Ona görə də valideynlər yalnız xaricdə təhsil ilə bağlı mütəxəsislərə müraciət etməlidirlər. Valideynlər bilməlidir ki, övladlarını Türkiyərə qiyabi təhsil almağa göndərirlərsə, onun diploma birmənalı olaraq tanınmayacaq, çünki Türkiyədə qiyabi təhsil yoxdur".

"Bundan başqa tələbələr oxumağa getdikləri ölkədə qiyabi təhsil alacaqlarsa azı 15 gün, əyani təhsil alacaqlarsa 90 gün semester ərzində o ölkənin ərazisində olmalıdırlar. Həmçinin, hər bir xarici ölkəyə oxumağa gedən şəxs eric-naric sistemində o universitetin olub olmamasını yoxlamalıdır. Bunlarla yanaşı xarici ölkələrdə oxumağa gedənlər o ölkənin dilini və tədris dilini bilmirlər ki, bu da sonradan onların diplomlarının tanınması zaman maneəyə səbəb olur".

***Ayşən Vəli***

# Vüqar Rəhimzadə: Vətən müharibəsi ədalətin, milli ləyaqətin, xalqımızın əyilməz ruhunun təntənəsidir



"Azərbaycan 44 gündə bir sıra beynəlxalq təşkilatların, o cümlədən BMT Təhlükəsizlik Şurasının qərar və qətnamələrini icra etdi. Tarixi ədalətin bərpası istiqamətində Azərbaycan Ordusunun rəşadəti, qələbə əzmi ölkəmizə qarşı dövlətlərin hansı mövqedə dayandıqlarına, ən əsası kimin münasibətlərdə səmimi və ədalətli olduğuna işıq saldı. Dövlətimizin başçısı İlham Əliyevin istər Vətən müharibəsi, istərsə də postmüharibə dövründə xarici mətbuata müsahibələrinə, beynəlxalq əhəmiyyətli tədbirlərdə çıxışlarına, həmçinin işğaldan azad edilmiş ərazilərimizə səfərləri çərçivəsində ünvanladığı mesajlara diqqət yetirsək görərik ki, artıq Azərbaycan üçün Dağlıq Qarabağ münaqişəsi səhifəsi bağlanıb, ölkəmiz gələcəklə yaşayır. Azərbaycandan fərqli olaraq işğalçı Ermənistan keçmişlə yaşadığı üçün hələ də siyasi, iqtisadi böhran içərisində çabalayır. İşğalçı Ermənistana və havadarlarına keçilən tarix və hüquq dərsləri Azərbaycanın döyüş meydanında, informasiya cəbhəsində Qələbəsinin təqdimatı oldu. 26 iyun-Silahlı Qüvvələr Günündə Prezident, Ali Baş Komandan İlham Əliyevin Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündə səsləndirdiyi bəyanatlar da bugünədək ən yüksək tribunalardan bəyan edilən, heç bir zaman dəyişməyən mövqeyimizin, ölkə Prezidentinin sərkərdəlik, liderlik məharətinin nümayişidir. Müzəffər Ali Baş Komandan İlham Əliyev Ermənistana yeni dövrün reallıqlarına uyğun olaraq yeni şərtlərini ünvanladı: Dağlıq Qarabağ sözünü ümumiyyətlə işlətməmək, öz qonşuları ilə normal münasibətlər qurmaq və ərazi iddialarından əl çəkmək. Ermənistan üçün ən düzgün yol Azərbaycanla sərhədlərin müəyyən edilməsi istiqamətində iş aparmaqdan, delimitasiya üzrə işçi qrup yaratmaqdan və sülh müqaviləsinə hazırlıq işlərinə başlamaqdan keçir". Bu fikirləri "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, dövlətimizin başçısının nitqində də bu məqam xüsusi qeyd edilir ki, münaqişə ilə bağlı yeni səhifə açılsa da, heç nəyi unutmamışıq: "Azərbaycan gəncliyinin milli, vətənpərvərlik ruhunda tərbiyəsi günümüzün əsas çağırışlarındandır. Tariximizin hər bir səhifəsi bizim üçün əzizdir. Xalqımız illərdir ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı aktlarını unutmur. Şəhidlərimizi, Xocalı qurbanlarını, dağılmış şəhərlərimizi unuda bilmərik. Dağılmış qəbirlər, təhqir edilmiş məscidlər necə unudula bilər? Ermənilər məscidlərimizdə donuz saxlamaqla bütün islam dünyasını təhqir etdi. Bunları unutmağa mənəvi haqqımız yoxdur. Ermənistan hakimiyyəti illərdir öz ideologiyalarını əsassız iddialar üzərində qurmuşdular. Əsrlər boyu gənc nəsil düşmənçilik ruhunda tərbiyə edilib, düşmənçilik, nifrət toxumları səpilib. Bu düşmənçiliyin hansı faciələrə səbəb olduğunu geniş şərh etməyə ehtiyac yoxdur. Təkcə 44 günlük İkinci Qarabağ müharibəsinin getdiyi dövrlərdə Ermənistan silahlı qüvvələrinin iki dəfə Gəncədə, Bərdədə və Tərtərdə törətdikləri insanlığa qarşı cinayət aktlarına diqqət yetirmək kifayətdir. Mayasında yalan, hiylə və xəyanət olan ermənilər törətdikləri müharibə cinayətlərini, vəhşilikləri ört-basdır etmək üçün total yalan və feyklərdən istifadə etdilər. Məqsəd erməni ictimaiyyətinin gözündə Ermənistan ordusunun məğlubiyyətinə haqq qazandırmaq, dünya ictimaiyyətinin diqqətini Ermənistanın törətdiyi müharibə cinayətlərindən yayındırmaq və beynəlxalq aləmdə Azərbaycanın mənfi obrazını yaratmaq idi. Ermənilər və onların havadarları unudurdular ki, yalanlarının ayaq tutub yeridiyi zamanlar Birinci Qarabağ müharibəsi dövründə qalmışdı. Artıq Azərbaycan o dövrün Azərbaycanı deyildi. Beynəlxalq çərçivədə Ermənistan silahlı qüvvələrinin beynəlxalq hüquq tərəfindən qadağan edilmiş silahlardan istifadə etdikləri təsdiqləndi. 30 ilə yaxın müddətdə dünya dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların bəyanatlardan konkret əməli işə keçəcəyinə inam nümayiş etdirən Azərbaycan dövləti, xalqı səbrinin tükənməz olmadığını göstərərək Dağlıq Qarabağın ədalət, milli qürur məsələsi olduğunu döyüş meydanında bir daha işğalçı Ermənistana və havadarlarına çatdırdı. Ermənistan kapitulyasiya aktına imza atdı".

Baş redaktor qeyd edib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük İkinci Qarabağ müharibəsi zamanı informasiya mübarizəsinin əsas tərkib hissəsi olan xarici mətbuata çoxsaylı müsahibələrində də Almaniyanın ARD televiziya kanalının jurnalistinin qərəz dolu suallarını cavablandırarkən bəyan etmişdir ki, Dağlıq Qarabağ ədalət, milli qürur və beynəlxalq hüquq məsələsidir. Azərbaycan ədaləti bərpa edir və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edir.

"Azərbaycan qalib, Ermənistan məğlub ölkə kimi tarixə yazıldı", söyləyən baş redaktor vurğulayıb ki, 26 iyun-Silahlı Qüvvələr Gününü böyük qürur hissi ilə qeyd etdik: "Azərbaycan Ordusu dövlətimizn başçısı İlham Əliyevin rəhbərliyi ilə Zəfər tarixini yazdığı üçün qürurlu idi. Yeni reallıqları yaradan Azərbaycan reallıqlara uyğun şərtləri diktə edir. Bu, möhtərəm Prezidentimiz İlham Əliyevin "Biz nəyi nə zaman etmək lazım olduğunu bilirik" tezisinin nümayişidir. Azərbaycan gücləndi, dünyaya ədalət, beynəlxalq hüquq deyilən məfhumun mövcudluğunu sübut etdi, yeni reallıqlar yaratdı. Reallıq budur ki, Azərbaycana Ermənistan lazım deyil, Ermənistansız da Azərbaycan bölgədə istədiyinə nail olub, qonşuları ilə bütün kommunikasiyaları qurub, enerji xətlərini çəkib, dəmir yollarını, bütün nəqliyyat layihələri icra edib. Ermənistan ilk növbədə xahiş etməli, qonşularından icazə almalıdır ki, bu prosesə qoşulsun".

V.Rəhimzadə onu da qeyd edib ki, Azərbaycanın təqdim etdiyi sülh modeli ilə humanizm siyasətini bir daha nümayiş etdirir. Dövlətimizin başçısının bəyan etdiyi kimi, müharibə riskini sıfra endirmək üçün bölgəmizdə, Cənubi Qafqazda müxtəlif təşəbbüslər irəli sürülməlidir: "Azərbaycana müharibə lazım deyil. Ölkəmiz istədiyinə nail olub. Artıq Azərbaycanın həyatında yeni dövr - quruculuq, torpaqlarımızın bərpası dövrü başlanıb. 30 ilə yaxın dövrün işğalının Ermənistana nə verdiyini yalnız və yalnız bir sözlə ifadə edə bilərik ki, uğursuzluq. Ermənistan Azərbaycanla eyni vaxtda müstəqillik qazansa da işğalçı dövlət formal müstəqilliyi ilə diqqət çəkib. Asılı vəziyyətdə yaşayan bir ölkənin güclü iqtisadiyyatdan, ordudan danışması qeyrimümkündür. İkinci Qarabağ müharibəsində Zəfərimiz Azərbaycanın qarşısında böyük imkanlar açıb. Bundan sonra da bütün istiqamətlərdə, xüsusilə hərbi sahədə böyük inkişaf qaçılmazdır. İmzalanan sənədlər, keçirilən təlimlər də bunun təsdiqdir. Ermənistan yenə də bizə qarşı düşmənçilik siyasətindən əl çəkməsə, nəinki hərbi gücünü, nəinki dağılmış, məhv edilmiş ordusunu bərpa etmək imkanı olmayacaq, eyni zamanda, iqtisadi fəallığı bərpa etməsi mümkünsüzdür. Onlar bilməlidirlər ki, dəmir yumruq yerindədir".

## Erməni zabit: "Bu ərazilərə giriş üçün Azərbaycan əsgərindən icazə istəyirik"



Zəngəzurun Teğ, Ərəvus və Xinzirək kəndlərinin əhalisi ot yığmağa getmək istədikdə Azərbaycan silahlı qüvvələrinin əsgərlərindən icazə alır. SİA xəbər verir ki, bu barədə erməni zabit Arman Tatoyan məlumat yayıb. Onun sözlərinə əsasən, Teğ, Ərəvus və Xinzirək kəndlərinin əhalisi "Andrun Karer" adlanan ərazidə ot yığır. "Amma son günlər bu əraziyə tam olaraq Azərbaycan Silahlı Qüvvələrinin əsgərləri nəzarət edir. Kənd sakinləri bu əraziyə keçmək üçün Azərbaycan əsgərindən icazə almalı olur", - deyə Tatoyan qeyd edib.

Teğ kənd icmasının sədri Nerses Şadunsun sözlərinə əsasən, Azərbaycan əsgərləri tərəfindən kənd sakinlərinə qarşı heç bir təcavüz halı qeydə alınmayıb: "Bu ot yığımı ərazisi Azərbaycan əsgərlərinin dislokasiya nöqtəsindən 300 metr məsafədə yerləşir. Amma məhz onlar bütün bu ərazilərə nəzarət edir".

*Aysel Məmmədova*

## Hərbi ekspert: "Azərbaycanı tam fərqli rakursda qəbul edirlər"



"Azərbaycan Ordusunda çox böyük inkişaf var, çox böyük dəyişiklik var. Azərbaycan Ordusu günü-gündən qüvvətlənir, günü-gündən öz döyüş qabiliyyətini artırır". Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Üzeyir Cəfərov deyib.

Hərbi ekspert sözlərinə davam edərək qeyd edib ki, dünən "Mustafa Kamal Atatürk-2021" adlı Azərbaycan-Türkiyə birgə hərbi təlimləri başlayıb: "Bu təlimlər 600 nəfər heyətin iştirakı ilə Azərbaycanda keçirilir. Eyni zamanda qardaş Türkiyədə "Anadolu Qartalı-2021" təlimləri də davam edir. Güclü ordumuz varsa, deməli biz regionda, dünyada güc sahibiyik. Zatən artıq Azərbaycanı tam fərqli rakursda qəbul edirlər. Ordumuz da həm öz bacarığı ilə, həm də ortaya qoyduğu nəticələrlə bu reytinqi bir qədər də yüksəltdi".

Üzeyir Cəfərov həmçinin qeyd edib ki, Azərbaycan 44 günlük müharibədə 21-ci əsrin tələblərinə uyğun olaraq, döyüş nümunəsi sərgilədi: "Biz ordumuzla fəxr edirik, biz ordumuzla qürur duyuruq. Ordu mürəkkəb bir mexanizmdir. Silahlı Qüvvələrin bütün sahəsində Azərbaycan Ordusunda inkişaf gedir. Sözsüz ki, iş olan yerdə nöqsanlar da var. Bu bütün dünya ordularında belədir. Əsgərlərimiz hava şəraitindən asılı olmayaraq onlar vətən qarşısında öz borclarını şərəflə yerinə yetirirlər".

*Arzu Qurbanzadə*

## ""Ali təhsil haqqında" qanun layihəsi qəbul olunarsa..."

### *Ekspert məsələyə aydınlıq gətirdi*



"Təhsil haqqında qanunvericilikdə əsasən qəbul qaydalarında bir qədər sadələşdirmə və ümumi tədris ili işinin təşkilinin təkmilləşdirilməsindən ibarət layihələr nəzərdə tutulur. Həmçinin, növbəti ildən etibarən bəzi ixtisaslar var ki, onların ikinci qrupdan üçüncü qrupa keçməsi əsas götürülür". Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə mütəxəssis Elçin Əfəndi deyib.

Onun sözlərinə görə, bundan əlavə tələbələrin təhsil kreditlərinin verilməsi ilə bağlı məsələlər də müzakirə olunur: "Yəni, əsas prioritet hesab olunacaq məsələlər bunlardır".

Elçin Əfəndi sözlərinə belə davam edib: "Qeyd edim ki, ümumiyyətlə təhsil haqqında qanunvericilikdə nəzərdə tutulmuş qanun layihəsi həyata keçirilərsə, bir sıra təhsil almaq istəyən şəxslərin təhsilinin təmin olunması baxımından olduqca mütərəqqi bir layihə olacaq. Doğrudur indi tam olaraq tərkib bəlli deyil ki daha çox hansı qanunlar irəli sürülür, amma ümumi təhsil adına düşünürəm ki, müəyyən addımlar atılar".

*Ayşən Vəli*

# Zəfər yolu

**Dövlətin yaranması, təşəkkül tapması, mövcudluğu ilk növbədə ordusunun mövcudluğu ilə mümkündür. Əvvəla ona görə ki, ordunun qüdrəti məhz dövlətin gücünün göstəricisidir və məhz bu səbəbdən də ordunun inkişafı dövlətin inkişafı ilə paralel şəkildə gedir. Digər tərəfdən, "Sülh istəyirsənsə müharibəyə hazır ol", ifadəsi sözün əsl mənasında hər zaman aktuallığını qoruyur.**



Azərbaycan hələ 1918-ci ildə belə müstəqilliyini qazandığı andan dərhal sonra ordu quruculuğuna başlamaq məcburiyyətində idi və haqlı olaraq bu quruculuğa da başladı. Müstəqilliyini qazandığı andan Azərbaycan ona görə dərhal ordu quruculuğuna başlamaq məcburiyyətində idi ki, biz hər an erməni düşmənçiliyi, erməni məkri ilə üz-üzə olmuşuq və məhz bu səbəbdən də dövlətin gücünün göstəricisi olan orduya hər şeydən çox ehtiyac duyulurdu. Doğrudur, havadarlarının köməyi ilə ermənilər Azərbaycana həmin o yarandığı dövrdə də, sonralar da zərbələr vura bildi, erməni azğınlığı sərhədləri həyasızcasına aşdı və görünür, düz 102 il sonra Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tərəfindən onlara, öz havadarları ilə birlikdə layiqli cavab veriləcəkmiş.

Bəli, ordunun yarandığından düz 102 il sonra düşmən üzərində mükəmməl qələbə qazanıldı. Azərbaycan Ordusu bu müddət ərzində özünün inkişaf yolunu keçdi və bu yol zəfərə aparan yol oldu. Ermənilərin düz 30 ilə yaxın müddət ərzində işğal altında saxladıqları torpaqlar, Azərbaycan torpaqları işğaldan azad edildi, öz əzəli və əbədi sahibinə qaytarıldı. Zəfər Savaşı adlandırılan və bütün dünyanın diqqət mərkəzində olan, hələ də araşdırılaraq örnək götürülən 44 günlük müharibə hər zaman sülh şəraitində yaşamaq istəyən Azərbaycan xalqının istəyini, arzusunu reallığa çevirdi. Bu reallıq isə, sülh istəyinin müqabilində müharibəyə hazır olmaqla, şərəfli, müzəffər orduya sahib olmaqla gerçəkləşdi. Bu şərəfli, müzəffər orduya sahib olmaq üçün keçilən yolda Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri heç zaman Azərbaycan xalqının yaddaşından silinən deyil. Sovet imperiyası dövründə Azərbaycan paytaxtında hərbi məktəbin təsis edilməsi və hərbi təhsilə azərbaycanlıların cəlb edilməsi Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətlərindəndir.

Doğrudur, biz ermənilərdən zəif olmasaq da, onların havadarları, özü də ermənilərin bizə qarşı düşmənçilik niyyətlərindən, meyillərindən xəbərdar olan, bundan istifadə edən havadarları daim ermənilərə hər müstəvidə kömək edərək bizim qalibiyyətimizə imkan verməyiblər. Bir zamanlar Osmanlıya qarşı qızışdırılan ermənilərin sonradan cəzalandırılmasına "soyqırım" adı verərək bunu da türklərə qarşı istifadə etmək istəyənlər üçün ermənilər hələ o zamandan alətə çevrilmişdilər. "Soyqırım" laylası ilə yuxuya verilən ermənilərə sonuncu dəfə Azərbaycab hədəf kimi göstərildi və bu dəfə də 30 il Azərbaycan torpaqlarını müvəqqəti işğal etmələri ilə bəslənildilər, aldadıldılar. Bölgəyə köçürülmələrindən əvvəl keç bir ərazisi, torpağı olmayanlara köçürüldükləri ərazilərdən əlavə yeni ərazilər, Qarabağ əraziləri vəd edilərək tovladıldılar. Azərbaycan öz torpaqlarını işğaldan azad etdikdən, geri qaytardıqdan sonra ola bilsin ki, ermənilər Qərbin əlində bu zamana qədər alət olduqlarını, əlinə müvəqqəti oyuncaq verilən uşaq kimi aldadıldıqlarını dərk edə biliblər. Əks halda, Sarkisya və Koçaryan kimi "Qarabağ klanı" ermənilər tərəfindən rədd cavabı almaz, növbədənkənar parlament seçkilərində rüsvayçı səs toplamazdılar, əksinə, onlara səs verilər, ikisindən biri də baş nazir seçilərdi. Amma, əgər belə olmadısa, deməli, artıq erməni xalqı da bu zamana qədər aldadıldığının, alətə çevrildiyinin fərqindədir.



Maraqlı məqamlardan biri də ondan ibarətdir ki, Ermənistanın sərhədlərini həmişə olduğu kimi, hələ də Rusiya qoruyur. Sirr deyil ki, Rusiyanın hərbi bazası hələ də Ermənistanda yerləşir. Bu zamana qədər Qarabağdakı hərbi qüvvələri barədə ermənilərin yaratdıqları mif də, olan-olmaz silahlı dəstələr də, terrorçular da 44 günlük müharibə dövründə Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan ordusu tərəfindən darmadağın edildi. Azərbaycanın tarixi zəfərinin müəllifi olan cənab Prezident İlham Əliyev ermənilərə, yalan üzərində qurulan Ermənistan dövləti barədə acı reallıqları anlatdı.

Sözün əsl mənasında Ermənistan heç nə qazanmadı, əksinə, bu 30 ildə nəinki itirdi, ümumiyyətlə bu 30 ili belə itirdi. İşğalçı ölkə



# Zəfər yolu

qazanmadı, əksinə, bu 30 ildə nəinki itirdi, ümumiyyətlə bu 30 ili belə itirdi. İşğalçı ölkə 30 ildə yalnız işğalçılıq haqqında düşündü. Azərbaycan beynəlxaq, regional layihələri reallaşdırdığı zaman, Ermənistan işğal etdikləri ərazilərdə müdafiə istehkamları qurmaqla məşğul oldu, hansıki, bu 30 ildə qurduqları istehkamları da elə yaratdıqları mif kimi Azərbaycan darmadağın etdi. Bu işğalçı ölkə hələ də müstəqil ölkə, müstəqil dövlət ola bilməyib. Əksinə, hələ də asılı vəziyyətdədir. Özü də ermənilər hələ də müəyyən edə bilmirlər ki, bundan sonra Qərbin, yoxsa Rusiyanın oyuncağı olsunlar. Özüözünü təmin edə bilməyən, iqtisadiyyatı, sənayesi, kənd təsərrüfatı, eləcə də ordusu olmayan ölkə kimi Ermənistan bundan sonra da başqa dövlətlərdən asılı vəziyyətdədir. Bir sözlə, 30 illik işğalçılıq siyasəti bu ölkəni bir ölkə kimi xəritədən belə silecək duruma saldı. Ermənilər birinci Qarabağ müharibəsində torpaqları ələ keçirdiklərini zənn edirdilərsə, qazandıqlarını düşünürdülərsə, bərk yanılırdılar və bunu anlamalıdırlar ki, onlar əslində, başda elə 30 il olmaqla, hər şeylərini itiriblər və bölgədə küncə qısılmış, marginallaşmış vəziyyətə düşüblər. Təbii ki, bu vəziyyətdən çıxış yolları da məhz Azərbaycanla qura biləcəkləri əlaqələrdən, münasibətlərdən keçir, əgər bunu anlaya bilsələr.

Azərbaycan paytaxtında, Bakıda hərbi məktəbin təsis edilməsi, hərbi təhsilə azərbaycanlıların cəlb edilməsi kimi Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətlərinin ardınca, cənab Prezident İlham Əliyev tərəfindən Azərbaycanda müasir ordu quruculuğu prosesi yeni mərhələsinə başladı, müasir silahların, texnikanın, texnologiyanın əsasında silah-sursatın, hərbi texnikanın alınması reallaşdırıldı. Təsadüfi deyil ki, 44 günlük müharibə, 21-ci əsrin müharibəsi kimi dəyərləndirilib və yeni nəsil silahlar, onlardan istifadə, döyüş taktikası dünyanın hərbi dairələrində hələ də müzakirə mövzusudur və örnək olaraq müzakirə edilir, öyrənilir. Bir sözlə, ölkəmizdə ordu quruculuğu müvəffəqiyyətlə həyata keçirilib və hələ də inkişaf etməkdədir.

Bütün sahələrlə yanaşı, ordu quruculuğunda olan inkişaf da göz qabağındadır. Bu gün ordumuzun gücü, qüdrəti təkzib edilə bilməz. Ordunun gücünün göstəricisi onun düşmən üzərində olan qələbəsi ilə ölçülür və Azərbaycan Ordusu bu qələbəni müvəffəqiyyətlə əldə etdi və düşməni diz çökdürərək rüsvayçı məğlubiyyətə, kapitulyasiya sənədinə imza atmağa vadar etdi. Əbəs yerə deyil ki, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusundan biridir və həqiqətən qürur duyulacaq bir məqamdır.

Bu gün Azərbaycana Ermənistan lazım deyil və Azərbaycan Ermənistansız da bütün istəklərinə nail olub, bölgənin lider dövlətidir, dünyada söz sahibidir. Azərbaycan yalnız öz gücü sayəsində, öz liderinin uzaqgörən, müdrik siyasəti və rəhbərliyi sayəsində bütün istiqamətlərdə inkişaf edib, qonşuları ilə bütün kommunikasiyaları qurub, enerji xətlərini, dəmir yollarını çəkib, bütün nəqliyyat və rabitə layihələrini icra edib. Bu gün Ermənistanın özünə Azərbaycan çox lazımdır. Bütün layihələrdən kənarda qalan, bölgədə sıxılıb qalmış vəziyyətdə olan Ermənistan indi Azərbaycanın əlaqələrindən, imkanlarından istifadə etməyə maraqlı olmalıdır. Bir növ Ermənistan yalvararaq belə proseslərə qoşulmaq niyyətində olmalıdır. Bu işğalçı ölkə xahiş edərək, qonşularından icazə alaraq prosesə qoşulmalı və bundan sonrakı durumu barədə düşünməlidir, işğalçılıq barədə deyil. Normal münasibətlər qurması, proseslərə qoşulması üçün isə Ermənistan ərazi iddialarından əl çəkməli, ölkəmizin sərhədlərini tanımalı, sülh müqaviləsinə hazırlaşmalı və onu imzalamalıdır. Bu işğalçı ölkə illər boyu həm özünü, həm də dünya ölkələrini aldatmaqla, riyakar siyasət yürütməkdən əl çəkməlidir.

Zəfər, qələbə hər zaman Azərbaycanın olacaq. Çünki biz hər zaman zəfərə aparan yolda olmuşuq və bu gün də bu yoldayıq. Azərbaycanın yolu bir, amalı birdir və bu qələbə əzmi bundan sonra da bizimlədir. Azərbaycanın yolu haqq yolu olduğu üçün bu yol bundan sonra da ölkəmizi yeni-yeni zəfərlərə aparacaq. Ona görə ki, bu yol zəfər yoludur.

***İnam Hacıyev***










# Toylarda yemək verilməli, yoxsa verilməməlidir? - Paytaxt sakinləri



**Bildiyiniz kimi, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən iyul ayının 1-dən toyların keçirilməsinə icazə verilib. Toyların keçirilməsi zamanı sosial məsafə qaydalarının nəzərə alınaraq təşkil olunmasına və qonaqlara 50-150 nəfərə qədər icazə verilməsi nəzərdə tutulur. Son günlər sosial şəbəkələrdə yayılan məlumatlara əsasən isə toylarda yemək verilməyəcəyi barədə yazılar dərc olunmaqdadır. Bəs bu barədə paytaxt sakinləri nə düşünür. Bununla bağlı SİA paytaxt sakinlərinin fikirlərini öyrənib.**

**Paytaxt sakini Rövşən Abbasov:** "Mənim fikrimcə pandemiyadan əvvəl 400- 500 və daha



çox qonaq olan toy şənlikləri keçiriliib. Və toylarda israfçılıq halları çox olub. Daha sonra pandemiya səbəbindən bildiyiniz kimi toylara icazə verilmədi. İndi isə yenidən toyların keçirilməsinə icazə verildi, amma artıq çox adamlı toylar yerinə daha az qonaq olan toylar keçiriləcək. Bizim xalqımız keçmişdən toylarını təmtəraqla keçirməyi sevirdi. Bu hal artıq bizim adət-ənənə halını almışdı və israfçılıq halları çox olurdu. Mənim şəxsi fikrimcə, toylarda yeməy verilə bilər amma çeşidlər azalmalı, hər bir qonaqın yeyəcəyi qədər yeməklər hazırlanmalıdır".

**Paytaxt sakini Nicat Məmmədov:** "Mən onu deyə bilərəm ki, toylarda qonaqlara yemək ve-



rilməlidir amma qədərində yəni ki, toy sahibi özü də anlamalıdır ki, pandemiya dövrüdür, yay ayıdır havalar isti olur və insanlar yay aylarında ağır qidalar qəbul edə bilmir. Bildiyiniz kimi pandemiya səbəbindən toylarda vaxt məhdudiyyəti olacaq. Onun üçün də toy sahibi vaxt məhdudiyyətini nəzərə alaraq, həm çox bəd xərclik etməməsi üçün, həm də israfçılıq hallarının baş verməməsi üçün yemək çeşidlərini az edərək qonaqlara təqdim etməlidir".

**Paytaxt sakini Mələhət Məmmədova:** " Mən onu deyə bilərəm ki, toylarda yemək veril-



məsi bizim keçmiş adət-ənənələrimizdən biridir. Müqayisə edərsək, Türkiyədə toy şənliklərində sadəcə şirniyyat və limonat verilir amma bizim ölkəmizdə keçirilən toy şənliklərində istər pandemiyadan əvvəl istərsə də pandemiya dövründə keçiriləcək toylarda çoxlu sayda çeşid olan yeməklər verilir və bunun da nəticəsində israfçılıq halları baş verir. İnsanlar toya əylənmək, toy sahibinin sevincinə şərik olmaq, vaxtını gözəl keçirmək üçün gəlir. Buradan toy sahiblərinə deyə bilərəm ki, çeşidləri azaldaraq yeməklər verilə bilər amma çalışmalıdırlar ki, israfçılıq etməsinlər".

**Paytaxt sakini Sadiq Fərhadlı:** "Mən onu deyə bilərəm ki, toylarda yeməyin verilib-verilmə-



məsi şərt deyil. Əsas ailə quran gənclər yəni, bəylə gəlin xoşbəxt olsun. Çünki bir ilə yaxındır ki, toyların keçirilməsinə icazə verilmirdi, gənclər xeyir işlərin edə bilmirdilər. İndi isə toylara icazə verilib və yenidən xeyir işlər keçirilir. Əsas odur ora gələn qonaqlar da yeni qurulan ailənin sevincinə şərik olsun".

**Paytaxt sakini Əlizamin Yunuszadə:** "Mənim fikrimcə toyların açılmasını vətəndaşlar çoxdan gözləyirdilər. toyda yeməklərin verilməsi ənənəvi qaydada yəni pandemiyadan əvvəl necə idisə indidə elə verilməlidir və gələn qonaqlar razı qalıb getməlidirlər. Sadəcə toya gələn qo-



naqlar sosial məsafəyə diqqət etməlidirlər. Yenidən virusa yoluxma halları çox olmasın və toylar davam etsin. Belə deyə bilərəm ki, toy sahibləri yeməklərin verilməsini problem etməyəcəklər amma çalışmalıdırlar ki israfçılıq etməsinlər. Əsas odur ki, yeni ailə quracaq gənclər xoşbəxt olsunlar".

**Paytaxt sakini Razim Əbdürrəhmanov:** "Əlbəttə toylarda yemək verilməlidir. İnsanlar toya



yemək yeməyə, əylənməyə gedirlər. Düzdü əvvəl ki, toylarda qonaqlar çox olurdu, yeməklər də çox olurdu. İndi isə pandemiyadı qonaq sayının az olmasını nəzərə alarsaq, toy sahibi yemək çeşidlərini azaldaraq həm öz büdcəsinə uyğun, həm də qonaqlara uyğun yeməklər verə bilər".

**Paytaxt sakini Qönçə Quliyeva:** "Ümumiyyətlə toylarda yemək verilməsi mənim üçün çoxda önəmli deyil. Mənim fikrimcə, toylarda yemək verilməsi və digər şeylərin xərcləri azaldılamlı-



dır və daha sərfəli toyların keçirilməsi vacibdir. Belə deyə bilərəm ki, toy sahibi müxtəlif növ çeşiddə yeməklər verir və sonda artıq qalan yeməklər israfçılıqa gətirib çıxarır"

*Ziya Hikmətoğlu*

# Holland nazir macarları diz üstünə qoyacaqmış Zorən LGBT?

## Yaxud, "Avropa dəyərləri" belə davam edərsə...



"Biz macarları diz üstünə qoyacağıq". Bu sözləri Niderlandın (Hollandiya) baş naziri Mark Ryütte Macarıstanda LGBT-yə qarşı qəbul edilən sərt qanunlara etirazını bildirərkən deyib. Onun sözlərinə görə, Macarıstan Avropa İttifaqının dəyərlərini bölüşməlidir.





**Mark Ryütte**

Əslində, avropalı yüksək rütbəli siyasətçilər və dövlət adamları məhz öz müttəfiqlərinə qarşı belə bir ifadələr sərgiləməklə, davranışlar nümayiş etdirməklə çalışırlar ki, onların LGBT-yə qarşı fikirlərini, sərt qanunlarını dəyişdirsinlər.



**Viktor Orban**

Xatırladaq ki, Macarıstanın dövlət başçısı Viktor Orban hələ may ayında hakim FİDES (Macar Vətəndaş İttifaqı) partiyasının təşəbbüsü və yekdil qərarı ilə qanunvericilikdə dəyişikliklər edərək, transgenderlərin cinsiyyətlərini dəyişməsi haqqında qanunu ləğv ediblər.

### Bütöv bir xalqı hədəfə almaq "Avropa dəyəridir"?

Və maraqlıdır ki, yuxarıda qeyd edilən fikri də məhz Niderlandın dövlət adamı irəli sürüb, üstəlik, hədə-qorxu dili ilə danışıb, daha dəqiq desək, ölkə rəhbərliyini də deyil, birbaşa bütöv bir xalqı (!) hədəfə alaraq LGBT-yə qarşı çıxdıqlarına görə macarları diz çökdürəcəyini bildirib.



Beləliklə, Avropa "dəyərlərinin" təkcə bu mübahisə üzərində deyil, digər məsələlərdə də çərçivədən çıxmasını elə Azərbaycana yönəlik məsələlərdə də hiss etməmək mümkün deyil. "Demokratik ittifaqın" təmsilçisi olan holland baş nazir iddia edir ki, Macarıstan xalqının böyük kəsiminin LGBT-nin rəsmiləşdirilməsinə "yox" demələri doğru deyilmiş, amma onun bir xalqa qarşı hədə-qorxu dili ilə danışması "Avropa dəyərlərinin" bir hissəsi kimi qəbul edilməliymiş (?!).

Yəni bir daha diqqət edək, holland baş nazir Mark Ryütte heç də macarların dövlət başçısı Orbana, onun apardığı siyasətə qarşı fikir söyləmir, bütöv macar xalqını diz çökdürəcəyini bəyan edir. Maraqlıdır, bəs bunu hansı "dəyərlərə" yazaq? Əgər bir xalq, hətta Aİ-nin siyasətinə müttəfiqlik edirsə, lakin müəyyən qanunlarını, tövsiyələrini rədd edirsə, həmin xalqı dərhal diz çökdürməkmi lazımdır? Hətta belə dəe ehtimal etmək mümkündür ki, Aİ dəyərlərinin altından faşizm işartıları görünməyə başlayır...

### Azərbaycan nəinki ümumavropa, bütövlükdə bəşəri dəyərləri icra edir!

Yaxud, gəlin bu məsələyə öz tərəfimizdən, yəni Azərbaycanın yanaşmasından baxaq və əslində, Ryüttenin sərt bəyanatına bizə müqabil olan cinahdan münasibət bildirək. Misal üçün, əgər Azərbaycan rəhbərliyi 44 günlük müharibədən sonrakı fəaliyyətində Ermənistanı sülhə, mehriban qonşuluğa məcbur edirsə, bu zaman başqa hay-haray salan Avropa ölkələrini demirik, elə məhz Niderlandı nəzərdə tutaraq qeyd edə bilərik ki, ölkəmizinm bu addımı bilavasitə ümumavropa davranışları normasını, yaxud tələbini ehtiva edir.



Xüsusilə, Niderlandın baş naziri, eyni zamanda parlamenti kənara çəkilməli, onlara aidiyyatı olmayan məsələlərə görə günaşırı anti Azərbaycan xarakterli bəyanatlar yaymamalıdırlar. Çünki Azərbaycan nəinki ümumavropa, bütövlükdə bəşəri dəyərləri icra edir və sülhə məcburetmə siyasəti apararaq mövcud olduğu regionun çiçəklənməsinə, inkişaf və tərəqqisinə nail olmağa çalışır.

### Dost macar xalqına isə səbr və təmkin arzu edirəm



Macarlar da öz milli xüsusiyyətlərindən çıxış edərək, əslində cinsi azlıq siyasətinin onlara xas olmadığını bəyan edirlər. Əlbəttə ki, holland baş nazirin LGBT-yə, o cümlədən LGBTsevər Ermənistan hakimiyyətinə yönəlik həssas sevgisindən fərqli olaraq...

Dost macar xalqına isə səbr və təmkin arzu edirəm. Ona görə ki, onlar ilk dəfə deyil bu cür "Avropa dəyərlərinə" görə Ryüttekimilərinin anlamsız, kobud, qeyri-peşəkar və sərsəm bəyanatları ilə qarşılaşırlar. Və bəlkə də, Avropa İttifaqının "dəyərləri" onun fəaliyyət prisniplərini də dəyərsizləşdirir və belə davam edərsə...

*Rövşən RƏSULOV*

# "Qarabağda minalar: Ermənistan Cenevrə konvensiyalarını pozurmu?"

## Fransa portalında Ermənistanın mina xəritələrini Azərbaycana verməməsi barədə məqalə dərc olunub


LE JOURNAL | LE STUDIO | LE CLUB | DEPUIS 48 HEURES | LES BLOGS | LES ÉDITIONS | L'AGENDA | LA CHARTE | PARTICIPEZ

Mines dans le Haut-Karabagh, l'Arménie viole-t-elle la convention de Genève ?

27 JUIN 2021 | PAR ANNA GUÉRIN | BLOG : LE BLOG DE ANNA GUÉRIN

**L'Arménie retient les cartes d'environ un million de mines posées sur les territoires disputés, augmentant sensiblement le risque de décès auprès de la population civile du Haut-Karabagh.**

4 COMMENTAIRES | 2 RECOMMANDÉS | A+ A-

Après un arrêt des affrontements et qu'une paix précaire s'est installée entre l'Arménie et l'Azerbaïdjan, de nouvelles tensions autour des champs de mines posés par les forces arménienne pourrait fragiliser le cessez-le-feu en place dans la région.

Suite à la guerre du Haut-Karabagh en 2020, qui a causé la mort d'une centaine de civils du côté azerbaïdjanais et de 146 civils du côté arménien, les tensions entre ces deux pays s'accentuent concernant l'emplacement des mines terrestres. En effet, comme stipulé dans les accords de cessez-le-feu, l'Arménie devait partager avec l'Azerbaïdjan l'emplacement des mines posées par ses forces afin de permettre aux autorités azerbaïdjanaises les désamorcer.

FAVORI | Partager | RECOMMANDER | Tweet | ALERTER | IMPRIMER

L'AUTEUR-E
ANNA GUÉRIN
3 BILLETS | 4 CONTACTS

Les rendez-vous de Mediapart

**Fransanın "Mediapart" portalında "Qarabağda minalar: Ermənistan Cenevrə konvensiyalarını pozurmu?" sərlövhəli məqalə dərc olunub.**

AZƏRTAC xəbər verir ki, məqalədə ermənilərin Qarabağda basdırdıqları 1 milyondan çox minanın xəritəsini verməməsindən və bunun əhalinin ölüm təhlükəsini xeyli dərəcədə artırmasından bəhs olunur. Qırx dörd günlük müharibəyə toxunan müəllif üçtərəfli Bəyanatdan danışıb. Bildirib ki, həmin Bəyanata əsasən, Ermənistan mina xəritələrini Azərbaycana təhvil verməli idi.

Müəllif Ermənistan və Azərbaycan arasında 30 ilə yaxın davam edən münaqişənin həllinə məsul olan Minsk qrupunun fəaliyyətindən, aparılan danışıqlardan söz açıb.

İyunun 13-də Ağdam şəhərində yerləşdirilmiş 97 min minanın xəritəsinin verilməsinə baxmayaraq, mina təhlükəsinin hələ də davam etdiyi və bunun xüsusilə mülki əhali üçün böyük təhlükə olduğu vurğulanıb. Ermənistanın mina xəritələrini verməməsi Cenevrə və Ottava konvensiyalarının beynəlxalq normalarına görə müharibə cinayəti olduğu bildirilib. Diqqətə çatdırılıb ki, dünyada adambaşına düşən minaların sayına görə Qarabağ ilk sıralardadır.

Müharibədən sonra 120-dən çox azərbaycanlı erməni minalarının qurbanı olub. Minaların son qurbanları isə iki jurnalist və bir nəfər icra hakimiyyəti nümayəndəsi olub. Ottava konvensiyasının II Protokoluna görə, minaların qeydiyyatı aparılmadan, yəni, xəritəsiz yerləşdirilməsi müharibə cinayəti hesab olunur.

# "Zəngəzur dəhlizinin açılması regional inkişaf üçün strateji avantajdır"

**Azərbaycan güclü diplomatik gedişləri, dəqiq siyasəti və Ordusunun gücü ilə regionda yeni münasibətlər sferasının təməlini yaradıb. Ortada gerçəyi əks etdirən məntiq var: Qafqazda yaranacaq uzunmüddətli sülh Avrasıyada bütün ölkələr üçün faydalı və perspektivlidir. Regionda ikitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlıq coğrafi baxımdan geniş, əhatəli və faydalı strategiyadır. Şuşa Bəyannaməsi mahiyyət etibarilə bütün tərəfləri əməkdaşlığa və mövcud inkişaf şanslarını düzgün dəyərləndirməyə dəvət edir.**





Bu fikirləri SİA-ya müsahibəsində Ankara Böhranlar və Siyasi Araşdırmalar Mərkəzinin sədri (ANKASAM) professor Mehmet Seyfettin Erol bildirib.

Keçmiş Dağlıq Qarabağ münaqişəsinin ortaya çıxmasını Azərbaycanın dövlət müstəqilliyinə qarşı düşünülmüş qəsd kimi dəyərləndirən professor Mehmet Seyfettin Erol deyib: "Azərbaycan otuz illik işğal dövründə heç vaxt bu təcavüzlə barışmadı. Bu qəti mövqe Prezident İlham Əliyev tərəfindən sülh danışıqları boyunca dəfələrlə dünya ictimaiyyətinə bəyan edildi. İndi isə reallıqda parlaq bir Zəfər var. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu əsrin az qala üçdəbirini əhatə edən işğala 44 gün ərzində son qoydu və ölkənin ərazi bütövlüyü bərpa olundu. Həm Ermənistan, həm onun havadarları, həm də bölgədə bu və ya digər formada maraqları olan bütün tərəflər dərk etməlidilər ki, Azərbaycanı bu şərəfli Zəfərdən sonra hansısa bir ədalətsiz qərara məcbur etmək mümkünsüzdür. Tez-tez təkrar etdiyimiz yeni situasiya məhz bundan ibarətdir: Azərbaycan beynəlxalq hüquqla tanınan dövlət sərhədini bərpa edib və indi regiondakı bütün proseslərdə Azərbaycan həlledici gücə malikdir".

Professor Mehmet Seyfettin Erolla söhbətimiz 26 iyun - Azərbaycan Respublikası Silahlı Qüvvələr Gününə təsadüf etmişdi. Milli Ordumuzun güc kriteriyalarını yüksək dəyərləndirən araşdırmaçı alim əminliklə dedi ki, Azərbaycan Ordusu Vətən savaşında yüksək peşəkarlıq nümayiş etdirməklə bərabər, beynəlxalq humanizm prinsiplərinə əməl edərək dinc əhalinin itki verməməsi üçün maksimum səylər göstərməklə beynəlxalq aləmdə ölkənin nüfuzunu yüksəldib.

Alim deyib: "Qarabağ Zəfəri nəticə etibarilə 44 günlük Vətən Müharibəsi sayəsinə əldə olunsa da, Prezident İlham Əliyev özünün müdrik siyasəti, çevik diplomatiyası ilə çətinliklə də olsa, bu qələbənin hüquqi və siyasi təməlini yarada bilmişdi. Hazırda dünyada bir çox münaqişələr var və təəssüf ki, onların sayı getdikcə artır. Keçmiş Dağlıq Qarabağ münaqişəsi məhz müdrik siyasət və Ordunun gücü ilə həll olunub və beynəlxalq hüququn Azərbaycana verdiyi ədalət bərqərar edilib".

"Şuşa Bəyannaməsindən sonra regionun gələcəyini necə görürsünüz", - sualını cavablandıran professor region ölkələrində gedən ictimai-siyasi və sosial-iqtisadi proseslərinin düzgün dəyərləndirilməsinin vacibliyini diqqətə çatdıraraq deyib: "Yeni koronavirus infeksiyası bütün ölkələr daxil olmaqla, dünya iqtisadiyyatına sarsıdıcı zərbə vurub. İnfeksiyanın fəsadları ictimai-siyasi və sosial-iqtisadi həyatda hələ uzun illər özünü göstərəcək. Digər tərəfdən pandemiya sosial həyatda yeniliklər yaradıb. İqtisadi dirçəliş və islahatlar sosial həyatın idarə olunmasında mühüm amilə çevrilib. Ona görə də bölgə ölkələri, o cümlədən qonşular birgə inkişaf konsepsiyasına qoşulmaq məcburiyyətindədir. Üçtərəfli bəyanatda və haqqında bəhs etdiyimiz Şuşa Bəyannaməsində əksini tapan Zəngəzur nəqliyyat dəhlizinin açılması bu mənada regional inkişaf üçün strateji avantajdır. Ən qısa zamanda bu istiqamətdə mühüm addımların şahidi ola bilərik. Münaqişə və yaxud pis münasibətlər regionda heç bir tərəfə fayda gətirmir".



# "Münaqişə bitib və rəsmi İrəvan bu reallıqdan çıxış etməlidir"

**Əgər söhbət Ermənistan kimi başqalarının vassallığında olan bir for-postdan deyil, normal dövlətdən getsəydi, onda həmin ölkədə seçkidə qələbə çalmış bu və ya digər siyasi partiyanın, onun liderinin kimliyinə dayanaraq, bu haqda dəqiq proqnoz vermək olardı. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin deputatı Sahib Alıyev deyib.**

Millət vəkili vurğulayıb ki, Ermənistan, bildiyimiz kimi asılı bir dövlətdir, əgər dövlət demək olarsa və oradakı seçki də normal dövlətlərdəkindən fərqli olaraq, siyasi yox, geosiyasi xarakterli bir səsvermə idi.

"Reallıqları nəzərə alaraq demək olar ki, Ermənistanın gələcəkdə hansı addımlar atacağı, orada hakimiyyətdə kimin olmasından daha çox, Ermənistanın asılı olduğu çevrələrin hansı siyasəti yeridəcəklərindən asılıdır. Zəngəzur dəhlizi ilə bağlı onu demək lazımdır ki, o dəhlizin açılması, hiss olunur ki, məhz Ermənistanın vassal asılılığında olduqlarının da maraqlarındadır. Ona görə də bu dəhliz açılacaq. Təbii ki, burada söhbət sadəcə onların maraqlarında olduğuna görə açılmasından getmir. Söhbət ondan gedir ki, əks təqdirdə Azərbaycan əks addımlar ata bilər. Bu addımlar isə nə Ermənistana əl verəsidir, nə də onun vassal asılılığında olduğu çevrələrə.

O ki, qaldı digər məsələlərə, məsələn, sərhədlərin ilkin mərhələdə delimitasiyası, sonra isə demarkasiyası məsələsi, onunla bağlı də cənab Prezidentin qəti mövqeyi ortadadır. Mövqe isə bundan ibarətdir ki, Dağlıq Qarabağ anlayışı artıq yoxdur, Dağlıq Qarabağ münaqişəsi deyilən münaqişə artıq bitib və rəsmi İrəvan bu reallıqdan çıxış etməlidir, sərhədlərin delimitasiyasına başlamalıdır, Azərbaycanla sülh danışıqları üzərində düşünməlidir. Əks təqdirdə onun heç bir çıxış yolu yoxdur. Yəni, reallıq bunu diqtə edir. Baxın, sadəcə bir faktı xatırladım. Bilirsiz ki, artıq Ermənistan Azərbaycanla sərhədlərinin qorunmasını da Rusiyanın sərhəd qoşunlarına etibar edir. Daha dəqiq, yalvararaq, Rusiyadan xahiş edir ki, Azərbaycanla sərhədləri də o ölkənin sərhəd qoşunları qorusun. Bu nə deməkdir? Bu o deməkdir ki, Ermənistan Azərbaycanın timsalında necə güclü bir Türkiyə görürdüsə, necə özündən qat-qat güclü bir iran görürdüsə, elə də özündən qat-qat güclü bir dövlət, Azərbaycan dövlətini görür. Yəni, bu dərk edilirsə, onda o da dərk edilməlidir ki, Qarabağ aranlı, dağlı Azərbaycan torpağıdır və bu BMT Nizamnaməsində də öz əksini tapır. Üstəlik, Azərbaycan hər baxımdan Ermənistandan qat-qat güclü dövlətdir və 44 günlük savaşda qələbə çalmış azərbaycanlı şəhidlərin qanı ilə əbədi olaraq o torpaqlarda bayrağımızı dalğalandırmağa haqq etmiş bir dövlətdir. Ya o dövlətin başçısının şərti yerinə yetiriləcək, ya da 44 günlük savaşda üzləşdiklərindən daha sərt reallıqla üzləşəcəklər", deyə Sahib Alıyev bildirib.

***İnam Hacıyev***

# Səmaya kim hakimdir - Amerika, yoxsa Rusiya döyüş təyyarələri?

**Qərb mediası "mükəmməl məhvedici" adlandığı Rusiyanın Su-35 qırıcısı haqqında araşdırmalar aparır və NATO döyüş təyyarələri ilə müqayisə edir. Məsələn, F-35 ilə.**






"The National Interest"-in jurnalistlərinin yazdıqları kimi, Rusiya Sovet hərbi texnologiyalarını daim mükəmməlləşdirir və silahlı qüvvələrini daim modernləşdirir. Su-35 belə modern texnologiyalardan biridir. Rusiya bu müasir döyüş təyyarəsini Çinə tədarük etməyə hazırlaşır, buna görə də onun "dəbli" Amerika F-35-i ilə müqayisəsi maraqlıdır.

Hərbi araşdırmaçı Deyva Majumdar yazır ki, "Lockheed Martin" şirkətinin F-35 zərbə qırıcısı Pentaqonun taktiki döyüş donanmasının onurğa sütunu olmalıdır. Rusiya və Çin isə tam hava üstünlüyü qazanmaq üçün "Sukhoi" xətti üzrə hazırlanmış bir çox döyüş maşınından (Su-27, Su-35 və Su-57) ibarət bir donanma yaradacaqlar.

Yaxın gələcəkdə elektronikasını, mühərriklərini və gövdəsini ciddi şəkildə inkişaf etdirən Su-35, havada daha tez-tez qonaq olacaq. Qərbdə F-35 var və düşmən döyüş təyyarələrindən qorunmaq üçün inkişaf etmiş qabiliyyətlərə sahib bir zərbə təyyarəsi olaraq qalır.

Hərbi ekspertlər F-35-in Su-35 ilə təmasda olacağı təqdirdə F-22 (Raptor) və F-15C-dən kömək istəməsi ehtimalının daha da artacağını düşünürlər.

Bu davranışın səbəbi, əvvəldən hava döyüşü üçün hazırlanmış "Raptor"dan fərqli olaraq, F-35-in bunun üçün nəzərdə tutulmaması ola bilər. Nə sürəti, nə hündürlüyə qalxma gücü, nə də raket idarəetməsi ona ciddi döyüşə başlamağa imkan vermir.

Qeyd olunur ki, F-35-in arsenalı bir vaxtlar AIM-9X üçün uyğunlaşdırılıbsa, qırıcı əsas vəzifələri üçün daha uyğun olan AIM-120 raketlərini qurban verməli olacaq. Beləliklə, F-35 pilotu nəyin bahasına olursa-olsun yaxın döyüşlərdən çəkinməlidir.

F-35-i havada kim əvəz edə bilər? Çox güman ki, rəqabətə davam edən F-15 olacaq. Su-35 bütün hədəflər üçün bir təhlükədir- amerikalı jurnalistlər yazırlar. Su-35 böyük bir hava-raket arsenalı daşıyır, F-15 isə köhnəlmiş müdafiə elektronikası ilə təchiz edilmişdir.

Yəni, Rusiya təyyarəsinin amerikalılarınkından üstün olması ABŞ Hərbi Hava Qüvvələri komandanlığının narahatlığına səbəb olur. Amerikalılar çox böyük texniki üstünlüklərə alışmışdılar. Hazırda isə belə deyil və olmayacaq, F-15C üçün Su-35 ilə qarşıdurma çox çətin olacaq. Ancaq F-15 III dünya müharibəsində iştirak etmək məcburiyyətində deyilsə, ölkənin hava qüvvələri onu hələ 20 il ərzində istifadə edəcəklər.

"Əslində, döyüş qabiliyyətinə görə Su-35-ə daha çox Boeing-in F-15 Eagle yaxındır. Digər bir seçim olan F-16 isə, ümumiyyətlə, F-15-in çatdığı sürət və yüksəkliklərə çata və AIM-120 raketlərini ata bilmir",- amerikan hərbi pilotları deyir.

Onları modernləşdirmək istəyirdilər, lakin büdcə ayırmalarının azaldılması səbəbiylə bu plan ləğv edildi. Buna baxmayaraq, Hərbi Hava Qüvvələri təcili olaraq artıq xeyli köhnəlmiş F-16-nı yeni radarlarla və sair texniki imkanlarla təchiz etməli olduqlarını düşünür və hesab edirlər ki, bu, nə qədər tez olarsa, bir o qədər yaxşıdır.




Beləliklə, nəticə "mavi yaxalıqlıların" idarə etdiyi (hərbi jargonla döyüş pilotları) amerika təyyarələrinin Su-35 üzərindəki keçmişdə sahib olduqları mübahisəsiz texniki üstünlüklərdən özünü məhrum etdiyini göstərir. "Bu anda tanıdığım ən qüdrətli qırıcı təyyarə, əlbəttə ki, Su-35S-dir. Baxmayaraq ki, kimlərsə F-22 və Su-35S-in bərabər olduğunu düşünür, hesab edirəm ki, dünyanın ən güclü döyüş təyyarəsi Su-35S-dir" "Fighterbomber" layihəsinin müəllifi yazır.

*Tərcümə: Elçin*

# Anti-Azərbaycan qüvvələrin başında duran Vidadi İsgəndərli...

## *Özgənin yalı ilə bəslənənləri xalq heç vaxt bağışlamır*



Son günlər sosial şəbəkə xəstələri, daha doğrusu təxribatçılar Vidadi İsgəndərlinin, Arif Məmmədovun, Sevinc Osmanqızının və digərlərinin müstəqil Azərbaycan dövlətinin son illərdə qazandığı mühüm nailiyyətlərdən, xüsusilə torpaqlarını işğaldan azad etməsindən ciddi narahatlıq keçirirlər. Bunun nəticəsidir ki, erməni lobbisinin sifarişlərini yerinə yetirən və onlara xidmət edən antimilli satqın qrup Azərbaycana qarşı "qara piar" kampaniyasında yenidən fəallaşmağa cəhd edirlər.

Bu xəyanətkar qrup açıq-aşkar ermənipərəst mövqe nümayiş etdirir, erməni ideoloqlarının uydurma tezislərinə istinad edərək ictimai rəyi manipulyasiya etməyə çalışırlar. Bu şəbəkənin üzvü, xaricdə məskunlaşaraq Azərbaycan dövlətçiliyinə və xalqımıza qarşı aparılan çirkin kampaniyaların aktiv iştirakçılarından olan Vidadi İsgəndərlinin bu günlərdə səsləndirdiyi və Ermənistanın işğalçılıq siyasətinə bəraət qazandırmağa xidmət edən absurd fikirləri də dediklərimizi sübuta yetirir. O açıq şəkildə bildirib ki, müharibə yenidən başlasa, əlində silah ermənilərə qarşı yox, bizə qarşı döyüşəcək. İxtisasca hüquqşunas olan bu adam yəqin ki, nə danışdığının fərqində deyil. Bu xəyanətkar qrup açıq-aşkar erməniperəst mövqe nümayiş etdirir, erməni ideoloqlarının uydurma tezislərinə istinad edərək ictimai rəyi manipulyasiya etməyə çalışırlar.

### Fransanın "təhqir maşını" Vidadi İsgəndərlinin siması - terrorçuluqdur

Gecə-gündüz sosial şəbəkədən düşməyən Fransanın "təhqir maşını" Vidadi İsgəndərli ötən gün yaydığı videoda Azərbaycan dövlətinə və xalqına qarşı olan kinini, nifrətini bir daha ortaya qoydu. Hər kəsə "vətənpərvərlik" dərsi keçməyə çalışan bu Vətən xaini açıq şəkildə bildirir ki, Fransada müharibə başlasa, gedib Fransa ordusunda vuruşacağam, amma Qarabağda müharibə başlasa, ermənilərə qarşı vuruşmayacağam.

Bu yerdə rus yazıçısı Lev Tolstoyun dediyi sözləri xatırlatmaq yerinə düşür: "Vətənpərvərlik yaramazların son sığınacaq yerinə çox tez-tez çevrilir". Bütün arqumentləri qurtaran adamlar sadəcə yalan danışmağa, özlərini şəxsi ambisiyaları barədə yox, yalnız xalq, onun rifahı barədə düşünən millət xilaskarı kimi göstərməyə başlayırlar. Təsəvvür edin, özünü əzabkeş, iqtidar tərəfindən təqib olunan biri kimi göstərən müxalifətin satqınlar "sülaləsi" ancaq satqınları müdafiə etməlidir. Bu təəccüb də doğurmur. Budur, danışanda ağzının suyu axan terrorçunun siması. Vidadri İkəndərli onu da bilir ki, onun getdiyi bir yol var - məğlubiyyət yolu. Və bu yolu xalq siz terrorçulara 2003-cü ildə göstərdi. Ancaq özgənin yalı ilə bəslənilərək torpağını, dədə-baba yurdunu satanların, bu Vəninin əldə etdiyi uğurlarına kölgə salmaqdan həzz alanların elə yeri o erməni iyi verən zibillliklərdir. Vətəni, torpağı olmayan Avropa zibilliklərində eşələnənlərin Vətəni olmur. Və sizin kimi marginallar unudurlar ki, antiazərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib tula payı almaqla, yallanmaqla heç nəyə nail ola bilməyəcəklər. Və onu da bilmədirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır və bağışlamayacaq da!

***Rəfiqə HÜSEYNOVA***

# Nikolun "Damokl qılıncı"na bənzər çəkici...

**O gün erməni əyalətində susuzluqdan əziyyət çəkən 13 kəndin fermerləri ilk narazılıq yürüşünə çıxaraq İrəvan-Armavir avtomobil yolunu bağlayıblar. Erməni saytlarının yazdığına görə, fermerlərə qoşulan bir xeyli yerli erməni əhalisi də susuzluqdan "dad" çəkdiklərini bildiriblər. Deyiblər ki, nə içməyə, nə də bağbostanımızı sulamağa su tapa bilmirik. Deyilənə görə, etirazçı erməni fermerlər təkidlə Ermənistanın ərazi idarəetmə və infrastruktur naziri Suren Papikyanı, o da olmasa heç olmasa əyalətin qubernatorunun əraziyə gəlməsini tələb ediblər.**



Maraqlıdır ki, bu barədə xəbər yayan "News.am" saytı mitinqçi erməni fermerlərə öz məsləhətini verməyi, yəni bu barədə əvvəldən fikirləşməyi də tövsiyə edib. Sayt yazır ki, bu gün Nikola qarşı öz narazılıqlarını bildirən fermerlər, gərək bir həftə bundan əvvəl su təchizatı problemlərinin çəkic və ya polis kordonları ilə həll olunmayacağını anlamalı idilər.

Saytın yazdığından belə baş düşülür ki, guya əgər bir həftə bundan əvvəl ermənilər Nikola yox, Robert və ya Serjikə səs versəydilər, indi heç bir su problemi ilə də üzləşməyəcəkdilər. Sayta görə, bu gün hər bir "qürurlu" erməni vətəndaşı öz hərəkətləri üçün məsuliyyət daşıdığını anlamalıdır: "İyunun 20-də ermənilər seçim etdilər. Amma bu seçim çox yanlış bir seçim idi(?). Bu bir növ 2018-ci ildəki seçimin davamı idi. Doğrudur, o zaman bir çox "qürurlu" erməni seçiminin səhv olduğunu sonradan etiraf etsə də, amma, onlar daha sonradan ümidlərini siyasi gəzinti sevənlərin "inqilabi" həvəsinə bağladılar".

Sayta görə, bu imidlər isə cəmi bir neçə ayda çökdü və həmin seçicilərin seçimi Ermənistana çox baha başa gəldi: "Üç il ərzində dövlət idarəetmə sistemi demək olar ki, yerə yıxıldı, bir çox dövlət qurumu vəhşicəsinə məhv edildi, ölkə iqtisadiyyatı kortəbii rejimə keçdi, təhlükəsizlik sistemi viran qaldı...".

...Belə görünür ki, bunların Nikolla bağlı "ürəkləri lap doluymuş" ki... Yenidən bir müddət əvvəl Nikolun seçiciləri ilə görüşə gələrkən əlindəki çəkicə diqqət çəkən sayt, bu aləti faydalı bir vasitə kimi təqdim edir. Bununla belə, sayt çəkicin faydalı vasitədən əlavə soyuq bir silh olduğuna da diqqət çəkərək, Nikol çəkiclərinin artıq Ermənistanın bütün ərazilərinə səpələnməyə başlanıldığını bildirir. Yəni...

...Mən belə başa düşürəm ki, deyəsən, sayt Nikolun çəkicini yunan mifologiyasındakı "Damokl qılıncı"na bənzətməyə cəhd edir.

***Ağasəf Babayev***

# "İslahatçı sədr"in haram pulları yuma mexanizmi

## Xalqa xəyanətdən formalaşan bu mexanizmin hərəkətverici qüvvəsi erməni sevgisidir

Ermənistandakı siyasi prosesləri izləyən, hələ də meydan eyforiyası ilə yaşayan AXCP sədri Əli Kərimlinin dağıdıcılıq missiyasını həyata keçirən bespridelləri ermənilərdən betər yasa batıblar. Səbəbi də aydındır. Paşinyan- Koçaryan-Sarkisyan triosunun qarşıdurmasından yaranan siyasi gərginliyin əsl səbəblərini araşdıran ermənilər yaxşı bilirlər ki, işi -peşəsi başqa ölkələrdə siyasi gərginlik yaradan, sabitliyin pozulması üçün qüvvələri üz-üzə qoyan dairələrin göstərişi ilə idarə olunan işğalçı ölkənin varlığı belə sual altındadır. Bu hadisələrə erməni baxışının açıqlaması. Ermənilərdən betər erməni təfəkkürlü Əli Kərimlinin də gəmisi qəm dəryasına qərq olub. Dayıları ermənilərdən aldıqları qrantlardan məhrum olacağını düşünən Əli Kərimli yaxşı bilir ki, Ermənistandakı siyasi hadisələri qrant çubuğu ilə idarə edən qoca Sorosun işğalçı ölkədən getməsi onun da əlinin kəsilməsi olacaq. Siyasətə gəldiyi gündən "canımmısan, ya qanımmısan ey, pul" sözlərini beynində dolandırmaqla bu xəyalla da gününü-gün edən " yurd şefi"nin dini, imanı puldur. Əli Kərimlinin bu xasiyyətini tifağı dağılan düşərgədə hamı bilir. İlk günlərdə şirnikləndirib ətrafına topladığı məsləkdaşlarının Əli Kərimlini tərk etməsinin əsasında da onun pula hərisliyi, xarici havadarlarından qopardığı satqınlıq pullarını təkcə həzm-rabedən keçirməsi idi. Ataların söylədiyi "südlə gələn xasiyyət sümüklə çıxar" kəlamı Əli Kərimlinin boyuna biçilib. İcazəsiz keçirmək istədiyi mitinqlərin təşkilində də məqsədi Azərbaycanda siyasi sabitliyin pozulduğu görüntüsünü yaratmaq, qrant qoparmaqdır. Amma Əli Kərimlinin dəyilməyən, əlacsız bir dərdi də sosial dayaqlarının olmamasıdır. Hazırda demək olar ki, pul gücünə yanında saxladığı söyüş dəstəsi olan trollarından başqa üz tutacağı kimsəsi yoxdur. Bu səbəbdən də ermənilərə dayı deyir, Ermənistanın Birinci və İkinci Qarabağ döyüşlərindəki məğlubiyyətlərinə milli kədəri kimi üzülür.

Əslində anti-Azərbaycan dairələrin əlində oyuncaq olan Əli Kərimlinin həmişə qeyri-kafi qiymətləndirilən " siyasi fəalyyəti"nin sonu rüsvayçılıqla sona çatıb. Qanunsuz aksiyalar keçirməklə "çirkli pulların" yuyulması mexanizmini əsas prinsip kimi davam etdirən "islahatçı sədr" heç vaxt Azərbaycanın, xalqımızın qazandığı uğurlara sevinməyib. Əksinə, bütün qələbələrimizə qara yaxmaqla bu fərəhli günümüzə öz keçmişinin prizması ilə baxan və qısqanclıqdan başı pozulan Əli Kərimli sağlam düşüncə tərzindən də məhrumdur. Azərbaycanın faktiki olaraq bölgənin güc mərkəzinə çevrilməsini, Vətən müharibəsindən sonra regionda yeni reallıqların yaranmasında respublikamızın möhkəmlənən mövqeyini, dünyanın diqqət mərkəzində olan ölkəmiz haqqında söylənilən xoş sözləri özünün məhvi kimi qavrayan bu zat nəinki iqtisadi, siyasi, hərbi uğurlarımızı, xalqın yüksələn rifahını belə qəbul etmək istəmir. Süni radikallıq vərdişləri isə daha çox qrant qazanmaq istəyindən qaynaqlanır. Cəmiyyətdə isterik təsir bağışlayan, mənasız təbliğatı ilə nəyə isə nail olacağını düşünən Əli Kərimli kimi "Milli Şura"da toplaşıb antimilli təxribatlarla məşğul olanlar belə Ermənistanın xüsusi xidmət orqanlarının tapşırıqlarını yerinə yetirirlər. İqtidarda olduqları zamanlarda korrupsiya girdabında boğulan AXC-Müsavat cütlüyünün hakim klanlarının tör-töküntülərinin "süfrə artığı" olan bu korafəhim siyasətçi hələ də dərk etmir ki, sayıqladığı və arzusunda olduğu inqilab dövrü çoxçox uzaqlarda qalıb. Əli Kərimli qatarı isə siyasi perronun son mənzilində əbədi olaraq arxaikləşib .



"Məhz o vaxt faktiki olaraq hakimiyyətə gəlmiş və bu gəlişini rəsmiləşdirmək istəyən AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa və Laçın işğal altına düşdü. Çünki onlar üçün hakimiyyətə gəlmək hər şeydən vacib idi. O vaxt müdafiə naziri onların adamı idi, hansı ki, söz verməişdi, əgər Şuşa əldən getsə, öz başına güllə çaxacaq. Bu günə qədər tula kimi orada-burada sülənir. Faktiki olaraq hakimiyyət Xalq Cəbhəsi-Müsavatın əlində idi. Onlar Şuşa və Laçını ermənilərə təhvil verərkən Bakıdakı hakimiyyəti yıxmaq istəmişdilər və buna nail oldular. Ondan bir ay keçəndən sonra hərbi çevriliş edərək, parlament binasını zəbt edərək hakimiyyəti devirdilər və qanunsuz olaraq hakimiyyətə gəldilər. Bu, onların böyük xəyanətidir" söyləyən Prezident İlham Əliyevin vurğuladığı kimi, anarxiyanın, özbaşınalığın, hərc-mərcliyin, talançılığın hökm sürdüyü AXC-Müsavat hakimiyyəti dövründəki hakimiyyətsizliyin əsas səbəbkarlarından olan Əlinin və onun kimilərinin xəyanəti üzündən şəhər və kəndlərimiz ermənilər tərəfindən işğal olundu. Bu səbatsız hakimiyyətin satqın kadrlarının ermənilərə satdıqları yanacaqla işləyən erməni tankları Azərbaycan torpaqlarını viran qoydular. "Ona görə, mən deyəndə ki, bunlar xəyanətkardırlar, satqındırlar, düşməndirlər, bax, buna əsaslanaraq deyirəm. Tarixi faktlara əsaslanaraq deyirəm. Onların mənfur xisləti bu gün də özünü büruzə verir. İkinci Qarabağ müharibəsi zamanında da altdan-altdan bizim ordumuza şər ataraq, haqq işimizə şər ataraq düşmənin dəyirmanına su tökdülər. Ona görə bu tarixi bilmədən bugünkü reallığa düzgün qiymət vermək mümkün deyil" söyləyən Prezident İlham Əliyevin bildirdiyi kimi, 1992-ci ilin mayında o vaxtkı Azərbaycan rəhbərliyinin xəyanəti nəticəsində Şuşa işğal altına düşdü.

30 işğal altında qalan ərazilərimizi, Şuşanı azad edən Milli Ordumuz barədə böhtanlar söyləmək Əli Kərimli kimi şərəfsizlərə yaraşır.

Qəhrəman Azərbaycan övladları mükəmməl hərbi əməliyyatlar keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etsələr də , şəhidlər verilsə də bu uğurlar Əli Kərimlinin məcazına uyğun gəlmədi. Şuşada dalğalanan Azərbaycan bayrağı belə onun xəyanətə bulaşmış təəssübünü oyatmadı. Şuşada təşkil olunan "Xarı bülbül" festivalı, Azərbaycan -Türkiyə birliyinin rəmzi olan möhtəşəm tədbirləri ermənisayaq seyr edən Əli Kərimlinin gözləri Ermənistana dikilmişdi. Respublikada fəaliyyət göstərən 50-yə yaxın siyasi partiyanın birlik, həmrəylik təşəbbüsünə qoşulmayaraq, birgə Bəyanatı imzalamaqdan imtina edən AXCP- Müsavat funksionerləri bu əməlləri ilə "bizdə köhnə hamam, köhnə tasdır" dedilər. Belə ki, çörəyini yeyib, suyunu içdikləri torpağın qədrini bilməyənlər Ermənistanda yaranan siyasi gərginlikdən narahatdırlar. Çünki deyildiyi kimi, ölkədə nəinki dayaqları, söykənməyə budaqları olmayan, bu xainlərin qranta öyrəşən əlləri də, yaxşını görməyən gözləri də yad əllərə tuşlanıb.

***Xuraman İsmayılqızı***

# Robert Koçaryan yenidən həbs ediləcək?

## İttiham tərəfi Konstitusiya Məhkəməsinin Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın işi ilə bağlı məlum qərarı pozduğunu bildirib



Ermənistanın keçmiş prezidenti Robert Koçaryana qarşı yeni ittiham irəli sürülə bilər. SİA erməni mediasına istinadən xəbər verir ki, prokuror Gevorq Bağdasaryan belə bir ehtimalı istisna etməyib.

Mart ayının sonunda Konstitusiya Məhkəməsi keçmiş prezident və bir sıra digər keçmiş məmurların əvvəllər ittiham olunduğu "konstitusiya quruluşunu devirmək" maddəsini konstitusiyaya zidd elan etdi. Bu əsasda, ümumi məhkəmə prosesi bu maddəyə əsasən cinayət təqibinə xitam vermiş, daha sonra prokurorluq qərardan Apellyasiya Məhkəməsinə apellyasiya şikayəti vermişdi. Eyni zamanda, Baş Prokuror Artur Davtyan bu qərarın ləğvi üçün Konstitusiya Məhkəməsinə müraciət etmişdi.

Bağdasaryanın jurnalistlərə verdiyi məlumata görə, prokurorluq Konstitusiya Məhkəməsinin Koçaryanın günahlandırıldığı maddənin konstitusiyaya zidd olduğu haqda qəbul etdiyi qərarının pozuntularla qəbul edildiyini düşünür. Əvvəla, Konstitusiya Məhkəməsinin iclası cavabdehlərin - Koçaryan və başqalarının iştirakı olmadan keçirilib, halbuki, qanunla, onların iştirakı məcburidir.

İkincisi, maddənin konstitusiyaya zidd olması, cinayət tərkibinin olmaması demək deyil.

Üçüncüsü, Cinayət Prosessual Məcəlləsinin birinci instansiya məhkəməsi tərəfindən cinayət təqibinə xitam verilərkən tətbiq olunan normalar Konstitusiyaya ziddir. Dövlət ittihamçısı indi Konstitusiya Məhkəməsinin Koçaryanın yenidən ittiham edilməsinə icazə verən bir qərar verəcəyinə ümid edir.

Xatırladaq ki, Ermənistanın Xüsusi İstintaq Xidməti, 1 mart 2008-ci il tarixindəki etiraz aksiyalarının dağıdılması ilə bağlı cinayət işi çərçivəsində 26 iyul 2018-ci il tarixdə 2-ci prezidentə qarşı konstitusiya quruluşunu devirmək ittihamı irəli sürüb. Koçaryan bu işi uydurma hesab edir və siyasi təzyiqə məruz qaldığını iddia edir.

***Elçin***

# Oleq Kuznetsov: Ermənistan bu şərtlərə əməl etməzsə...



İstər seçkilərdən əvvəl, istərsə də sonra Ermənistanın qarşısında üç qlobal problem dayanır və bu problemləri həll etmək yeni seçilmiş hökumətin üzərinə düşür ki, onu da gec, ya da tez parlament təsdiq edəcək. SİA xəbər verir ki, Rusiyanın siyasi analitiki və tarixçisi, professor Oleq Kuznetsovun sözlərini "Kavkazskoye byüro" kanalı yayımlayıb.

"Birincisi, Qarabağdan imtina və bu torpaqları Azərbaycanın ərazisi kimi tanımaqdır, ikincisi, sülh razılaşmasının tələbləri əsasında Azərbaycanla dövlət sərhədlərinin demarkasiyasıdır, üçüncüsü isə Zəngəzur dəhlizinin açılmasıdır", deyən rusiyalı siyasətçi qeyd edib ki, bu gün həmin problemlərin hansının birinci həll olunması əhəmiyyət daşımır, birincisi, ikincisi, ya da üçüncüsü, əsas məsələ budur ki, ölkə öz kompleksindən çıxa bilməzsə, onun gələcəyi olmayacaq.

Professor bildirib ki, əks halda Ermənistanı gələcəyi olmayan çoxsaylı problemlər gözləyəcək: "Bütün hallarda bu ölkənin hakimiyyəti və ya xalqı iki seçim qarşısındadır, ya ambisiyalar, ya da inkişaflı gələcək. Bu seçim isə müstəqil şəkildə edilməlidir".

**"Makron beynəlxalq vəziyyətin reallığını dərk etməyən təlxək kimi görünəcək"**

Siyasi analitik daha bir fakta da toxunaraq bildirib ki, Ermənistan hələ də artıq mövcud olmayan "Dağlıq Qarabağ münaqişəsindən" danışır və bu addımı ilə yanlış mövqe nümayiş etdirir: "Bu, görünüşcə daxili auditoriyaya hesablanmış addım kimi qiymətləndirilə bilər ki, onun da arxasında ictimai rəy arasında nüfuz qazanmaq marağı dayanır. Həmçinin, Ermənistan rəhbərliyi bu kimi fəaliyyəti ilə Fransanın prezidenti Makronun əlinə oynamağa çalışır. Belə ki, gələn il Fransada növbəti prezident seçkiləri olacaq və bir milyonluq erməni diasporunun səsi ona hava-su kimi lazımdır. Əgər Ermənistan bəyan etsə ki, artıq Ermənistanla Azərbaycan arasında münaqişə yoxdur, bu zaman Makron beynəlxalq vəziyyətin reallığını dərk etməyən təlxək kimi görünəcək və onun onsuz da aşağı olan elektoral reytinqinə zərbə dəyəcək", Kuznetsov bildirib.

***Rövşən RƏSULOV***

# Ermənilər Paşinyana inanmaq istəmirlər - NİYƏ?

Ermənilərin "Arka am" saytı xəbər verir ki, ermənilərin baş naziri Nikol Paşinyan son hökumət iclasında, Ermənistanda iş yerlərinin və burada çalışan işçilərin maaşlarının xeyli artması ilə öyünüb. Beləliklə, ilk olaraq hesabat verən Ermənistan dövlət gəlirləri komitəsinin rəhbəri Edvard Ovannisyan iclas zamanı 2021-ci ilin may ayına qədər ölkədə yeni açılan iş yerləri hesabına təxminən 635 min nəfərin işlə təmin edildiyini bildirib. O, bu iş yerlərinin ötən ilin müvafiq dövrü ilə müqayisədə xeyli çox olduğunu da diqqətə çatdırıb. Ovannisyanın dediyindən belə məlum olur ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə təxminən 8,5 min çoxdur.

İçlasdakı çıxışı zamanı ötən ilin sentyabr ayını iş baxımından ən aktiv ay kimi dəyərləndirən Paşinyan isə bu ilin sentyabrında ötənilki sentyabr göstəricini adlayacaqlarına söz verib. Təbii ki, Paşinyanın dediklərinə ermənilərin, daha çox da Nikolu sevməyən ermənilərin reaksiyası elə də özünü çox gözlətməyib.

Məsələn, Nikolun əsas nailiyyətlərə ölkədə kölgə dövriyyəsini azaltmaqla nail ola bildiyinə irad bildirənlər maraq edib ondan kölgədən çıxan iş amilinin hakimiyyətə ictimai rəğbət səviyyəsini necə artıra biləcəyini başa düşmədiklərini soruşurlar. Onların iddisına



görə, artıq dördüncü ildir ki, ölkədə iş sayının göstəricisinin artırdığını sadalayan Paşinyan israrla xalqın alqışlarını qazanmağa çalışır.

Nikol əleyhdarları bildirirlər ki, iş yerlərinin kölgədən çıxması əmək bazarındakı vəziyyət, vətəndaşların məşğulluq səviyyəsi, işsizlik və ölkədəki ümumi sosial vəziyyətlə heç bir əlaqəsi yoxdur. Yəni bu məşğulluq sahəsindəki kölgə əleyhinə addımların effektivliyinin göstəricisidir. "Aydındır ki, əmək bazarının həqiqi mənzərəsini əldə etmək üçün, necə deyərlər, buğdanı samandan ayırmaq lazımdır. Ancaq hökumət belə bir ibtidai vəzifəni belə həll edə bilməyib deyə, hələ də "vurnuxur". Əslində isə buna reallıq da demək olar, çünki indiyə qədər yeni yaradılmış iş yerlərinin sayı barədə heç vaxt məlumat verilməyib". Bunu da Nikol sevməyənlər bildirirlər.

***Ağasəf Babayev***

TƏRS BAXIŞ+FOTOFAKT

**Radikal müxalifətin yersiz səs-küyləri və əsassız ittihamları sanki bir ənənəyə çevrilib. Məsələ həm də ondadır ki, haray-həşirləri vasitəsi ilə gündəmdə qalan bu adamlar hətta buraxdıqları ciddi səhvlərindən sonra belə adi insani keyfiyyətə malik olan davranış nümayiş etdirməyərək, "belə də olmalıdır" tipli sərsəm "prinsipləri" üzərində var-gəl edirlər. Necə deyərlər, belələri üçün "əsas" budur ki, haradan gəldi, necə gəldi hakimiyyətə, iqtidara qarşı qarayaxma kampaniyaları aparıb, ictimai rəyi həmin düşük kampaniyaları ilə çaşdırmağa müvəffəq olsunlar.**

# Səxavət Soltanlı başqanı Arif Hacılının yaxasından yapışsın ki...

## Yaxud, müsavatçılar belə ifşa olundular!







### Səxavət Soltanlı özünü "Femida" kimi aparmağa cəhd etsə də...

Xüsusilə, 44 günlük Vətən müharibəsindən sonra belə, utanıb-yerə girmələri yerinə çatana-çatıb, çatmayanın da arxasınca daş atan siyasətbazlar dəstələri əvvəlcə öz üzərlərində olan kir-pasaqları, küdurətləri, xainlik əlamətlərini slibatmalıdırlar, sonra sosial şəbəkələrə çıxaraq söz demək imkanlarına malik olmalıdırlar. SİA-ya daxil olan məlumata görə, Müsavat partiyasının sdər müavini Səxavət Soltanlı guya ki, "haqq-ədalət" carçısı roluna girib, özünü "Femida" kimi göstərməyə çalşıb, amma nəticədə rüsvay olub. Əlbəttə ki, rüsvay olmaq bunlar üçün 2x2-dir və qətiyyətn veclərinə də deyil. Amma elə məsələlər də var ki, onların üzərindən keçmək olmaz!

Beləliklə, YAP-ın gənc fəalı Anar Şahmuradov Müsavat patiyasının sədr müavini Səxavət Soltanlıya ədalətli olmaq dərsi keçib. O, partiyanın Gəncər Birliyinə məxsus səhifəsində yazıb.

**YAP-ın fəalı: "Düz 6 saat sonra Səxavət Soltanlı xəbər tutur ki, heç demə müsavatçı Fərəc Kərimli "Vətən Uğrunda" medalı ilə təltif edilibmiş"**

SİTAT: "Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Vətən Müharibəsində iştirak etmiş hər bir hərbi qulluqçunun təltif edilməsi haqqında Sərəncamlar imzalayıb. İmzalanmış Sərəncamlar 76 mindən çox hərbçini əhatə edib. Sərəncamlar imzalanarkən təbii ki, hərbi əməliyyatlar dövründə göstərilən xidmətlər əsas götürülüb. Burada heç bir etnik, dini, siyasi ayrı-seçkilikdən əsla söhbət gedə bilməz! Ancaq bu dəfə də özünü müxalifət adlandıran radikal düşərgə nümayəndələri öz siyasi məkrlərindən qala bilməyiblər.

Belə ki, Müsavat partiyasının sədr müavini olan Səxavət Soltanlı heç bir dəqiqləşdirmə etmədən status paylaşır ki, müsavatçı Fərəc Kərimliyə medal verilməyib və həmin statusda bayağı bir tərzdə öz aləmində kinayəli fikirlər səsləndirir. Düz 6 saat sonra Səxavət Soltanlı xəbər tutur ki, heç demə müsavatçı Fərəc Kərimli "Vətən Uğrunda" medalı ilə təltif edilibmiş. Əvvəlki statusunda etdiyi yanlışlığa görə heç bir üzrxahlıq etmədən, üzrxahlıq bir kənara, yalan və kin dolu statusunu silməyərək növbəti təbrik statusunu yazıb.



Sakhavat Soltanli
13s ·

Dostumuz, Müsavat başqanının müavini Fərəc Kərimli 44 günlük müharibədə göstərdiyi qəhrəmanlığa görə "Vətən Uğrunda" medalı ilə təltif edilib!

Təbriklər!

Sakhavat Soltanli, Fərəc Kərimli ile birlikte.
19s ·

Ölkə başçısı İlham Əliyevin sərancamı ilə növbəti dəfə Qarabağ döyüşlərində iştirak edən yüzlərlə hərbçiyə xüsusi medallar verilib. Füzulidən Şuşaya qədər gedən Fərəc Kərimliyə yenə də medal verməyə ehtiyac hiss etməyiblər.

Adamlar özlərini peşəkar siyasətçi hesab edirlər, fikir-xəyalları xalq, ölkəyə rəhbərlik edə bilməkdir. Amma bu cür hərəkətləri gördükdə isə deyirsən ki, axı hansı ağılla, hansı yanaşma tərzi ilə? Vallah biabırçılıqdır! Allah eləməmiş siz bir anlıq bunları bu "ağılla" hakimiyyətdə düşünün. Təsəvvür edin, istənilən ölkəylə bir anın içində düşmən düşüb vəziyyəti müharibə həddinə çatdırar, sonra da geri çəkilib fəlakətlərə yol açarlar. Necə ki, 1992-1993-cü illərdə bu cür səriştəsizlikləri, yarıtmazlıqları səbəbindən ölkəyə olmazın problemlər yaratmışdılar..."

### Arif Hacılı partiya başqanı olaraq xalqın səsinə səs vermədi, birgə bəyanata imza atmadı, əcəba nəyə görə?!

Nə deyəsən? Həqiqət elə həqiqətdir və hər şey də göz önündədir. Bu müharibədə xalq bir araya gəldi, xalq heç bir siyasi ambisiyalara uymayaraq Vətənin müdafiəsinə qalxdı və Sərkərdəsi, Ali Baş Komandanı ətrafında sıx birləşməklə müzəffər qələbəsini qazandı.

İndi isə - DİQQƏT EDİN (!) bütün siyasi partiyaların Vətən müharibəsi dövründə imzaladıqları birgə bəyanatına imza atmayan müsavatçılar düşüblər ortaya və saxtakarlıqlar edərək, "medal davası" döyürlər, həmin mükafata layiq olan minlərlə oğullarımız ona layiq görülüblər, heç bir siyasi mənsubiyyətinə fərq qoyulmadan.

Qaldı ki Səxavət Soltanlının açıq-aşkar siyasi həyasızlığına, o daha yaxşı olardı ki, gedib başqanı Arif Hacılının yaxasından yapışıb, nəyə görə xalqın, siyasi partiyaların birlik, dəstək bəyanatına dəstək göstərməməsinin, imza atmamasının hesabını soruşsun!

*Rövşən RƏSULOV*

---

# Rus dəbilqəsi altında gizlənən erməni sayıqlamaları...

**"Bizim ən böyük problemlərimiz saxta tariximizdir. Ancaq erməni qardaşlarım bilməlidirlər ki, bu saxta tarixi biz yazmamışıq. Onu bizim üçün yazıblar. O məqsədlə ki, bizi idarə edəsinlər. Bu da ondan ötəridir ki, hər dəfə qonşularla sülh haqda düşünəndə kitabxana zirzəmilərindən bunu çıxarıb desinlər: baxın, sizə onlarla dostluq etmək olmaz, onlar həmişə sizin düşmənləriniz olub və olacaqlar"...**

Deyim ki, bu fikirlər erməni mənşəli rusiyalı tarixçi Filip Ekozyants məxsusdur. O, bu fikirlərini bir müddət bundan əvvəl videomüraciət şəklində də ermənilərə çatdırmışdı. Amma kimə deyəsən...

Beləliklə, 44 günlük məlum biabırçı məğlubiyyətdən sonra ayaqlar altına düşüb qalmış erməni dəbilqəsinin altında gizlənib indi ehtiyatla başını çıxarıb, utanmadan Azərbaycana "xox" gəlməyə cəhd edən Aram Torqomyan adlı bir erməni polkovniki peyda olub. Bəli, hələlik ara sakitdir deyə, özündən "erməni fədaisi" yaratmağa çalışır. Deyir ki, artıq vaxtdır, bütün hərbi tör-töküntüləri birləşdirmək lazımdır. Erməni ordusunun polis birliyini də qeydiyyata almaq lazımdır. Bu qeydiyyatdan sonra çox güman ki, hərbi kafedranın rəhbərliyi ilə görüşüb əlavə təlimatlar almalıyıq. Torqomyanın dediyinə görə, bu gün təxminən 7 qeyri-hökumət təşkilatı da onlara qatılıb. Yəni artıq silahlanıb sərhədlərin müdafiəsinə qalxmağa hazırdırlar.

...Belə görünür ki, Torqomyan elə-belə erməni polkovniklərinə oxşamır. Çünki bu gün Ermənistanın "suveren ərazisindəki düşmənin mövcudluğuna" dözən erməni səlahiyyətlilərini tənqid etmək hər ermənin işi deyil. Qeyd edilməlidir ki, erməni polkovnikində olan "cəsarətə" adam lap "heyran qalır".

Belə ki, o, hakimiyyətdə olduğu ərəfədə ermənilər üçün nələr etdiyini sual kimi qorxub-eləmədən Nikol Paşinyana ünvanlayır. Deyir, o vaxt dünyanın bütün erməni diasporları Nikola pul-para göndərdi. Nikol isə pulları mənimsəyərək, müharibəni uda bilmədi. Sonra deyir ki, Nikoldan fərqli olaraq, biz bu müharibəni uduzmamışıq, hələ baxın, yaxınlarda qalib gələcəyik, yəni azərbaycanlılara qarşı başqa bir müharibəmiz olacaq. Ona görə, dünya erməniləri hamısı hazır olmalıdır - bizi qarşıda yeni bir Sardarapat gözləyir.

...Yeri gəlmişkən, xatırlatmaq yerinə düşər: Sardarapat dəmir yolu stansiyasıdır. Belə ki, adətinə sadiq tulalıq edib sahibləri tərəfindən silahlandırılan ermənilər 1918-ci




il mayın 21-28-i arası Sardarapatda türklərə qarşı təxribat xarakterli döyüş təşkil etmişdilər. Təbii ki, həmin ərəfədə türklər də Əmir Teymur kimi, ermənilər sonadək qırıb tarixə "qara ləkə kimi" düşmək istəmədilər. Məncə, indi ermənilərin həmin döyüşdə "məğlub olmadıqlarını" deyib öyünmələri çox gülünc görünür.

...Nə isə, indi də qayıdaq, dünənədək ermənilərə rusların hədiyyəsi olan dəbilqə altında gizlənib indi oradan başını çıxarıb özünü öyən erməni polkovniki Torqomyan üstünə...

İnanın ki, adam "sıravi" bir polkovnikdəki "şücaətə" yenidən heyran qalmaya bilmir. Torqomyan Paşinyna lap açıq deyir ki, 7 min "qəhrəman erməni oğullarını" qurban verdin. Qədim "erməni şəhəri olan" güclü Şuşa qalasını, Hadrutu, Matagisi,Talışı "təslim etdin" və məhz bütün bunlara görə, səni də Rumuniyz hökmdarı Çauşeskunin aqibəti gözləyir. Torqomyan, daha sonra lap "qorxub-eləmədən" deyir ki, mən Köçəryanın tərəfindəyəm, onunla birləşib iki eşalon olacağıq və "təslim etdiyin" bütün torpaqları geri alacağıq. Bunun üçün biz dünya ermənilərinə üz tuturuq, harada yaşamağınızdan asılı olmayaraq həmin ölkədə erməni alayları yaradın. Müasir silahlarla silahlanın. Çünki biz türklə əl sıxmağa heç vaxt razı olmamalıyıq. İndi onlarla müqavilə imzalasaq, deməli hər şeyi itirəcəyik.

...Biz yazının əvvəlində, erməni tarixçi Filip Ekozyantsdan öz xalqı ilə bağlı sitat gətirmişdik. Ancaq istisna deyil ki, bu gün ermənilər arasında Ekozyants kimilərin fikirlərini eşidənlər yox dərəcəsindədir. Məhz buna görə də, bu gün bəzilərinin yaxınlarda ermənilərin özlərinin bir nömrəli düşməninin tanıyıb, "a qadan alım, rus ayısı"nın xidmətindən imtina edəcəyi barədə dedikləri elə də inandırıcı görünmür.

Bir daha xatırlatmaq istərdim: belə görünür ki, vaxtilə Əmir Teymurun, daha sonra türklərin Sardarapat dəmir yolu ərazisində həyata keçirmədiklərini, deyəsən, ermənilər özləri həyata keçirəcəklər. Yəni, belə getsə, tezliklə nə Ermənistan adlında dövlət, nə də erməni adında xalq qalacaq...

*Ağasəf Babayev*

# Süni gözəllik, yoxsa bətndəki körpə: İkisindən birini seç!

**Kimyəvi kosmetikadan istifadə edən hamilə qadınları və doğulacaq uşaqları hansı təhlükə gözləyir?**

Bütün qadınlar ana olmaq istəyir, ana olmağın yolu da hamiləlikdən keçir. Hamiləlik zamanı normal qidalanma, normal geyim, normal istirahət, normal psixoloji vəziyyət gələcək körpənin sağlamlığı üçün əsas şərtlərdəndir. Uşağın sağlam doğulması üçün daha vacib bir şərt də var- ananın kosmetik vasitələrdən imtina etməsi. Lakin müşahidələrimizdən görünür ki, əksəriyyət bunu gözardı edir, daha qiymətli olanı daha qiymətsiz olana qurban verir.

### Hamilə qadınların saç boyaması nə ilə nəticələnə bilər?

Hamiləlik dövründə bir çox qadın körpənin sağlamlığına təhlükəli olduğunu düşündüyü üçün bir çox vərdişindən əl çəkir. Siqaret çəkən, içki içən qadınlar pis vərdişlərindən çətin də olsa uzaqlaşa bilirlər. Amma çox qadının ağlına belə gəlmir ki, hər gün üzlərinə çəkdikləri krem, istifadə etdikləri ətir, dodaqlarına, dırnaqlarına və saçlarını çəkdikləri boya da körpənin inkişafına ən az siqaret və spirtli içki qədər zərərlidir.

Kosmetik məhsulları arasında ən çox istifadə edilən məhsullardan biri də saç boyalarıdır. Çox sıx-sıx istifadə edilməsi, uzun müddət qalıcılığını saxlayan boyaların tərkibində olan maddələrin mənfi təsirləri daha çoxdur. Saç boyalarının tərkibində saysız-hesabsız kimyəvi maddələr olduğundan həkimlər və gözəllik ekspertləri hamilə qadınlara qəti surətdə saç boyamamağı məsləhət görürlər. Bu bətndəki körpənin zəhərlənərək ölməsinə səbəb ola bilər. Mümkün qədər uşaq dünyaya gələnə kimi saçlarınızı boyatmayın.

Saçlarında fərqlilik axtaranlar, ağ saçlarından şikayətçi olanlar hamiləliyin ilk üç ayının tamamlanmasını gözləməli və daha sonra yalnız bitki mənşəli olan saç boyalarını istifadə etməlidir. Ancaq kimyəvi tərkibi olmayan təbii boyalarla saçlar boyana bilər. Xına ən yaxşı variantdır. Əgər xınanın rəng tonunu dəyişmək istəsəniz ona qara çayın dəmləməsini və yaxud da yetişməmiş qoz qabıqlarının dəmləməsini əlavə edə bilərsiniz. Xına üçün “xınagülü” adında təbii maddə də var.

Qıvrım saçlarından məmnun olmayan və saçlarını düzləşdimək istəyən hamilə qadınlar da bu fikirdən uzaq olmalıdır. Çünki saçların düzləşməsi üçün tətbiq edilən maddə də kimyəvi tərkiblidir. Bu cür maddələrin tərkibindəki kimyəvi birləşmələrin saç dərisindən qana keçməsi qaçılmazdır ki, bu da körpədə əqli şikəstlik yarada bilər.

### Həkim: “Bu maddə dölə ötürülsə, təhlükə yarana bilər”

Həkim-kosmetoloq Gunay Məmmədova bildirir ki, hamiləlik



fizioloji bir proses olsa da, qadın həyatının ən məsuliyyətli dövrlərindən biridir. Ona görə də, bu dövrdə gələcək ana öz sağlamlığına qarşı çox diqqətli olmalıdır: “Hamiləlik dövründə aşağıda qeyd edəcəyimiz şərtləri gözləməklə kosmetik vasitələrdən istifadə etmək olar. Hamiləlik dövründə kosmetik vasitələr cüzi miqdarda, mümkün qədər gec-gec istifadə etmək lazımdır. Eyni vaxtda müxtəlif kosmetik vasitələrdən və çoxlu miqdarda istifadə etmək hamiləlik dövründə qadının və ana bətnindəki dölün sağlamlığına mənfi təsir göstərə bilər. Saçlar üçün dayanıqlı rənglərdən, ağardıcı boyaqlardan, dırnaqlar üçün olan laklardan, hətta bəzi krem və şampunlardan istifadə etmək olmaz!

Kosmetikalar, tanınmış, əvvəllər istifadə etdiyiniz, firma mağazalarından alınmalıdır. Küçələrdən, keçidlərdə, bazardan satılan kosmetikaların saxlanılma şərtləri pozulduğu üçün bu kosmetikalarda olduqca zərərli, mənfi təsirə malik maddələr yarana və dölə arzuolunmaz, çox ciddi zərərlər verə bilər”.

Mütəxəssis bildirir ki, hamiləlik dövründə müxtəlif kremlərə, şampunlara qarşı yaranan allergiyalar, dölə ötürülə, gələcəkdə uşaqda müxtəlif allergik xəstəliklərə də səbəb ola bilər: “Məsləhətimiz odur ki, hamilə qadınlar yaxşı olardı ki, hipoallergik kosmetikalardan, tərkibi bəsit şampunlardan istifadə etsinlər.

Əksər kosmetik vasitələrin-kremlərin, şampunların, lasyonların tərkibində metilizotiozalin adlı kimyəvi maddə var. Bu maddə dəridən qadının qanına sorularaq, dölün beyninə, sinir sisteminin inkişafına çox ciddi təsir edir. Hamiləlik dövründə müxtəlif bioloji ekstrakt tərkibli kosmetikalardan da yersiz, çox istifadə etmək məsləhət deyil”.

### Ətir hamilə qadınlar üçün real təhlükədir

Ətirlərin tərkibində həddindən çox kimyəvi maddələr olduğundan, allergik dəri reaksiyalarına səbəb olan kosmetikalar arasında birinci sırada yer alır. Əgər ətirlərə qarşı allergiyanız varsa, bu məhsulları istifadə edəndə dərinizdə şiddətli allergik dəri reaksiyaları başlaya bilər.

Nəzərə alsaq ki, hamiləlik zamanı qadınlar daha həssas olurlar, o zaman hamilə qadınlara ətirlərin istifadəsi birdəfəlik qadağan olunsa daha yaxşıdır. Bu, xüsusən dermotoloji problemləri olan qadınlara şamil edilir.

Bütün növ ətirlərin tərkibində “paraben” adlı təhlükəli maddə var. Kosmetik vasitələr arasında ən çox ətirlərin istehsalında istifadə edilən bu maddə kanserogendir. Hamilə qadınların ətirlərdən istifadə etməsi öz övladına ən böyük təhlükə yaratması deməkdir. Çünki bütün inkişaf etmiş ölkələrdə tərkibində “paraben” olan kosmetik vasitələr, əsasən də ətirlərin satışına qadağa qoyulub. Qeyd edək ki, körpəniz üçün istifadə etdiyiniz bəzi dəri kirşanlarında və kremlərində də yüksək dozada paraben var.

### Əlamətləri necə anlayaq?

Hamiləlik müddətində bədəndə immunitet, hormon və qan-damar sisteminizə təsir edən əhəmiyyətli problemlər meydana gəlir. Bu dəyişikliklər, dərinizdə patoloji və fizioloji proseslərin başlanğıcı da bilər.

Dəri xəstəlikləri üzrə mütəxəssislərin fikrincə, dəridə tündləşmə, saç tökülməsi ilkin əlamətlərdir: “Bədəninizdə, xüsusilə qarın və bud nahiyələrində çatlar meydana gəlirsə, qıçlarınızda şiş və əllərinizdə xırda qırmızı ləkələr yaranırsa, bu, sizin kosmetik vasitələrdən ciddi zərər gördüyünüzü göstərir.

Amerikada “Food and drug administration” adlı komitə, bütün kosmetik maddələri teratogen (körpədə anomaliya yaradan), kanserogen (xərçəngə səbəb olan) və toksikoloji (orqanizm üçün zərərli) sahədə araşdırır. Həmin komitənin bəyanatına görə, içində bu adda maddələr olmayan kosmetik vasitələrin satışına izin verilə bilər. Amma nəzərə alsaq ki, bəzi ölkələrin gizli laborotoriyalarında dəhşətli viruslar hazırlanaraq məxfi şəkildə dünya ölkələrində yayılır, o zaman onların təminat verdiyi kosmetik vasitələrin tərkibində də insan üçün zərərli maddələrin olması mümkündür.

### Hamiləlik zamanı plastik əməliyyatlar

Hamiləlikdə botoks: Bəzi həkimlər botoksun dölə zərər verməyini desə də, əksər həkimlər bunun doğru olmadığını deyirlər. Botoks tətbiqinin hamiləlik və əmizdirmə üçün təhlükə hesab edən tibb işçiləri ondan mümkün qədər uzaq olmağı məsləhət görürlər. Həkimlər bildirir ki, hamiləlikdən sonra xüsusi idman hərəkətləri və dəriyə təbii qulluğu etməklə hər qadın təbii botoksa sahib olar.

Hamiləlikdə silikon: Bəzi qadınlar daha gözəl görünmək üçün, qırışları aradan qaldırmaq və bəzi hissələri dolğunlaşdırmaq üçün silikondan istifadə edilər. Müxtəlif kimyəvi birləşmələrdən istifadə edilən bu əməliyyatlarda, istifadə edilən vəsaitə görə təhlükəsizlik sertifikatları var. Amma bu təhlükəsizliyə təminat verə bilməz. Tərkibində süni kimyəvi birləşmə olan bütün növ mayelər döl üçün təhlükəlidir. Hamiləlik zamanı sizin qırışıqlara görə silikon və ya botoks etdirməyə ehtiyacınız yoxdur, çünki hamiləlik irəlilədikcə dəri təbii olaraq dartılır və sizi narahat edən qırışlar öz-özünə yox olur.

Hamiləlik zamanı tatuaj: Bir çox qadın qaşlarını, bəziləri bədəninin müxtəlif yerlərini tatuaj etdirir. Bunun zərəri barədə dəfələrlə yazılsa da, buna məhəl qoymurlar. Qeyd edək ki, tatuaj müvəqqəti də ola bilər, ömürlük də. Bu çox ağrılı bir prosesdir, rənglər iynə ilə dərinin altına yerilir ki, bunun fəsadı olduqca qorxulu ola bilər. Dəri xərçənginə birbaşa yol olan tatuajın hamilə qadınlara tətbiqi heç bir halda doğru deyil. İynə vasitəsi ilə QİÇS-ə yoluxan yüzlərlə tatuaj qurbanı olduğunu unutmamalıyıq.

### Hamilə qadının süni gözəlləşməyə ehtiyacı varmı?

Bir çox qadın müəyyən yaş dövründən sonra üz üçün maskalardan istifadə edir. Çünki hamiləlikdə dəri rəngi dəyişə, xırda çil və ləkələr əmələ gələ bilər. Hətta el arasında qız uşağına hamilə olan qadınları üzündəki ləkələrdən tanıyırlar. Yaşlı qadınlar qadının hamiləlikdə gözəlləşdiyini görəndə “oğlun olacaq”, üzünün ləkələndiyini görəndə isə “qızın olacaq” deyir.

Hamilə qadınlar dərilərində yaranmış ləkələrdən çox narahat olurlar. Maskalar bu vəziyyətdə ən yaxşı köməkçi hesab oluna bilər. Çünki onlar hamilə qadına və dölə zərərli deyil. Amma təbii ki, təbii maskalardan söhbət gedir. Bu maskaları tanıdığınız kosmetoloqdan sifariş edə bilərsiniz və yaxud da evdə özünüz hazırlaya bilərsiniz. İndi internetdə, gözəllik üçün dərc olunmuş kitab-jurnalda kifayət qədər təbii üz maskalarının reseptini görə bilərsiniz.

Qadınların bir çox masaj aludəsidir. Qeyd edək ki, masaj hamiləlik dövründə də edilə bilər, hətta qan dövranınızın normal işləməsi üçün bu xeyirlidir. Ancaq masaj edənin professional olması mütləqdir. Hamilə qadınlar üçün təyin edilmiş bir çox masaj növü var, amma hamilə qadın masajını hər kəsə etibar etmək olmaz. Bu cür masajlar yalnız bu sahədə tibbi biliyi və praktiki təcrübəsi olan peşəkar həkimlərə etibar edilməlidir.

### Hamilə qadın gözəldir...

Hamiləlik bütün problemlərinə baxmayaraq qadınların həyatları boyunca yaşaya biləcəkləri ən önəmli bir dövrdür. Hamilə qadının özü bir gözəllikdir. Adi bir misal, qarşıdan sizə tərəf gələn iki qadın görürsünüz, biri hamilə, digəri normal görünüşdə. Sözsüz, hamilə qadın diqqətinizi çəkəcək, dodaqlarınıza təbəssüm qonacaq. Üzündəki xəfif ləkələri, azacıq kökəlməsi belə ona yaraşıq verir. Hamilə qadının üzündə heç bir kosmetikanın, heç bir professional makiyaj ustasının yarada bilməyəcəyi bir gözəllik var, o gözəlliyi kosmetik vasitələrlə pərdələməyək. Ən əsası, özümüzü və doğulacaq körpəmizi zəhərləməyək.

**Lalə Mehralı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması” istiqaməti çərçivəsində hazırlanıb.*

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

**30 iyun**

QARABAĞ AZƏRBAYCANDIR!


## "Yuventus" Ronaldonun qərarını gözləyir

"Yuventus" hücumçusu Kriştiano Ronaldonun gələcəyi ilə bağlı qərar verəcəyini gözləyir. Bu barədə "Tuttosport" nəşri məlumat yayıb. Bildirilib ki, portuqaliyalı oyunçu Turin klubu ilə müqaviləni uzatmağa hazır olub-olmadığına qərar verməlidir. Çünki "Yuventus"un transfer bazarındakı işi onun qərarından asılıdır. Forvard komandanı tərk edərsə, klub eyni anda bir neçə oyunçu ala biləcək. 36 yaşlı futbolçunun karyerasını harada davam etdirəcəyinə iyul ayının ortalarına qədər qərar verəcəyi gözlənilir .



## "Bakcell"dən 099 prefiksi ilə "xüsusi" və "eksklüziv" nömrələr

Bakcell "099" prefiksi ilə başlayan "xüsusi" və "eksklüziv" nömrələri istifadəyə verib. Məhdud sayda buraxılan bu nömrələr abunəçilərə "Klass 25" və "Klass 50" tarifləri ilə təklif olunur. İstifadəçilərini özəlliyi ilə fərqləndirəcək və yeni hədəflərə doğru addımlamağa kömək edəcək 099 prefiksli yeni nömrələr bu gündən etibarən satışdadır. Müştərilər arzuladıqları nömrəni nomre.bakcell.com səhifəsi vasitəsilə rezervasiya edə və ya "Bakcell"in istənilən müştəri xidməti mərkəzi və diler mağazasından ala bilərlər. Qeyd edək ki, Bakcell yeni "099" mobil prefiksini ötən ilin əvvəlində təqdim edib. Yeni prefiks abunəçilərə xüsusi və fərdi nömrələr əldə etmək üçün daha geniş imkanlar verir.

"Abunəçilərimiz yeni 099 prefiksimizə böyük maraq göstərib. Buna görə də biz onlara fərqlənmək və ən üstün müştəri təcrübəsindən yararlanmaq üçün 099 prefiksli eksklüziv nömrə almaq imkanı yaratmışıq. Bu nömrələri beynəlxalq səviyyədə 3 il ardıcıl olaraq "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adını qazanmış Bakcell şəbəkəsində istifadə etmək isə əlavə üstünlüklər qazandırır", deyə "Bakcell"in baş icraçı direktoru Rainer Ratgeber bildirib. Daha ətraflı məlumat üçün https://www.bakcell.com/az/099-prefix-exclusive-special səhifəsinə daxil olun.




Bakcell xidmət və şəbəkə keyfiyyətini müntəzəm qaydada təkmilləşdirməklə abunəçilərini ən üstün müştəri təcrübəsi ilə təmin etməyə davam edəcək.

## Həkim kosmetoloq: Hər cür maskanı üzünüzə vurmayın!

"Pandemiya dövründə virusdan qorunmaq üçün istifadə etdiyimiz tibbi maskalar bir tərəfdən bizi qorusa da, digər tərəfdən üz dərisində



səpgilərə, sızanaqlara yol aça bilir". Bu fikirləri SİA-ya açıqlamasında həkim-kosmetoloq Nigar Sultanova deyib.

Həkim-kosmetoloqun sözlərinə görə, kosmetik vasitələrdən istifadə etdikdən sonra üzə tibbi maskanın taxılması dəriyə ikiqat zərərlidir: "Çünki bu zaman dəri nəfəs ala bilmir. Ona görə də üz dərisinə qulluq bu zamanlarda daha da vacib hesab edilir. Bəzən xanımlarımız evdə kustar üsulla hazırlanan maskalardan istifadə edirlər. Lakin bu cür maskaların kosmetoloq məsləhəti olmadan istifadəsi məqsədəuyğun deyil".

N.Sultanova vurğulayıb ki, ilk öncə dərideki problemi həkim-kosmetoloq müəyyənləşdirməli, həmin problemə və dəri tipinə uyğun kosmetik prosedurdan istifadə etməlidir. Şüursuz şəkildə edilən maskaların üz dərisinə xeyrindən çox ziyanı dəyə bilər. Buna görə də məhz kosmetoloq məsləhəti olmadan üz dərisinə maskalar etməyin nəticələri ürəkaçan olmaya bilər".

*Aysel Məmmədova*

## Mütəxəssisdən xəbərdarlıq: Enerji içkisi alarkən diqqətli olun!

"Ümumiyyətlə yay aylarında təhlükələr əsasən içkilərlə bağlı olur. Xüsusilə də qazlı və enerji içkiləri təhlükə qrupuna daxildir. Enerji içkiləri həm qazlı, həm qazsız ola bilər. Lakin, bu içkilər nəticəsində günü-gündən ölümlərin sayı artır. Bu da bu içkilərin saxta yollarla istehsal olunmasından irəli gəlir". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova deyib.



Onun sözlərinə görə, bütün bu saxtakarlıqlar yalnız Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində qarşımıza çıxır: "Enerji içkilərindən ən çox zərər çəkən də təbii ki, gənclər və yeniyetmələrdir. Gənc və yeniyetmə dedikdə 13-14 yaşdan yuxarı və 35 yaşa qədər olan insanlar nəzərdə tutulur. Onlar bu içkilərdən spirtlə istifadə etdikdə daha təhlükəli hal alır. Çünki, tərkibində kofein və taurin maddəsi var ki, bu maddənin spirtlə reaksiyası orqanizmə çox ciddi fəsadlar törədir. Əsasən də ürəkdə aretmiya baş verir və birdən-birə mərkəzi sinir sisteminin funksiyası pozulur ki, mütləq şəkildə bundan qaçınmaq lazımdır".

"Təbii ki, yay aylarında istehlak daha çox olduğu üçün işbazlar da öz əməllərindən geri qalmayaraq, enerji içkiləri adı altında saxta içkilər istehsal edirlər. Bu bəzən üzərində yazılan tərkiblə içəridəkinin əksi olur. Həmçinin, bir çox vitaminləri qeyd edərək gəncləri aldadırlar. Ona görə də, ümumiyyətlə enerji və qazlı rəngli içkilərdən uzaq durmaq lazımdır. Çünki, 25 yaşa qədər orqanizm hələ tam formalaşmamış olduğu üçün zərərli məhsullar orqanizmdə istər fiziki, istər əqli inkişafında çox böyük fəsadlara yol açır".

Məhsəti Hüseynova sözlərinə belə davam edib: "Bu içkilər eyni zamanda qan təzyiqinin yüksəlməsi, ürəkbulanma, qusma və digər metabolik sindromlarla rast gəldiyimiz xəstəliklərə səbəb olur. Xüsusilə də, idmançılar və cəmiyyət arasında tanınmış şəxslərin bu içkiləri istifadə edərək təbliğ etməsi daha arzuolunmaz haldır".

"Yaxşı olar ki, enerji içkilərinin tərkibində şəkər miqdarı həddindən artıq çox olduğu üçün bu da şəkərli diabet xəstəliyi riskini də artırır. Əgər biz yay aylarında sərinləmək və enerjili olmaq üçün təbii içkilərdən istifadə etməliyik. Məsələn, suyun turşuluğunu, qələvi mühitini artırıb daha faydalı etmək üçün axşamdan sevdiyimiz meyvələri suya doğrayıb səhər gün ərzində onu içə bilərik. Buraya müxtəlif meyvələr daxildir. Eyni zamanda nanə, reyhan, bal və s. suya əlavə edib içmək çox faydalı hesab olunur. Bütün bunlarla yanaşı, təbii meyvə şirələri də var ki, yüksək çəkili insanlar portağal və qreypfrut, alma və kökü qarışdırıb içə bilərlər ki, bunlar da gün boyunca gümrah və enerjili olmağa daha kömək edir. Ən önəmlisi isə sağlam şəkildə enerji yığmağı təmin edir".

*Ayşən Vəli*

## ELAN

**Hörmətli "Nar" abunəçiləri!**

09.07.2021 tarixindən başlayaraq "Asan İmza" xidmətini istifadə edən abunəçilər mövcud SIM kartı dəyişmədən xidmətinin etibarlılıq müddətini SMS vasitəsilə uzada bilərlər. Bunun üçün "8500" qısa nömrəsinə uyğun açar sözündən ibarət SMS göndərilməlidir. Daha ətraflı məlumatı https://www.nar.az/asanimza/ səhifəsindən əldə etmək olar.

## Dənizdə boğulan 6 nəfər xilas edilib

**Gün ərzində dənizdə 1 nəfər boğularaq ölüb, 6 nəfər xilas edilib. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi üzərinə düşən vəzifələrinin icrası, o cümlədən əhalinin və ərazilərin təbii və texnogen xarakterli fövqəladə hallardan qorunması istiqamətində fəaliyyətini davam etdirir. Belə ki, Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə daxil olmuş zənglər əsasında Nazirliyin aidiyyəti qurumları tərəfindən ötən sutka ərzində 115 yanğına çıxış və 9 halda köməksiz vəziyyətdə qalma faktı üzrə qəza-xilasetmə əməliyyatları həyata keçirilib. Görülmüş təcili və təxirəsalınmaz tədbirlər nəticəsində yanğınların operativ söndürülməsi, insanların həyatının xilas olunması təmin edilib.**

**Ümumilikdə, ötən sutka ərzində 2-si azyaşlı olmaqla 10 nəfər, o cümlədən çimərlik və qeyri-çimərlik sahələrində çimərkən batma təhlükəsi ilə üzləşən 6 nəfər xilas edilib. Həmçinin, Şüvəlan qəsəbəsində dənizdə qeyri-çimərlik ərazidə batan 1999-cu il təvəllüdlü Xəlilov Rəşad Həbil oğlunun meyiti dalğıcaxtarış qrupu tərəfindən tapılaraq aidiyyəti üzrə təhvil verilib.**




**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**